# Real Alternativlər Mövcuddur

**Cin Şarp**

**Albert Eynşteyn İnstitutu**

## Albert Eynşteyn İnstitutunun Missiyası

Albert Eynşteyn İnstitutunun missiyası münaqişələrdə dinc hərəkatın strateji tətbiqini və bütün dünya üzrə tədqiq olunmasını inkişaf etdirməkdir. Təsisat aşağıdakı sahələri öyrənir:

- demokratik azadlıqların və təsisatların müdafiəsi;
- zülmə, diktaturaya və soyqırımlara qarşı çıxmaq; və
- siyasət aləti kimi zorakılığa arxalanma hallarının azaldılması.

Missiya aşağıda göstərilmiş üç vasitə ilə həyata keçirilir:

- Dinc fəaliyyət metodları üzrə araşdırmalara və siyasi tədqiqatlara təkan vermək və onların əvvəllər ayrı – ayrı münaqişələrdə tətbiq olunması;
- Bu araşdırmanın nəticələrini nəşrlər, confranslar və media vasitəsilə ictimayyət ilə bölüşmək; və
- Münaqişədə olan qruplar ilə dinc mübarizənin strateji potensialı haqda məsləhətləşmələr aparmaq.

Albert Eynşteyn İnstitutu
427 Nyuberi Küçəsi Boston,
MA 02115 – 1802, ABŞ

**REAL**

**ALTERNATIVLƏR MÖVCUDDUR**

Bu nəşrdə gördüyünüz hər bir material ictimaiyyətin ixtiyarındadır və Cin Şarpın icazəsi olmadan yenidən nəşr oluna bilər. Mənbədən sitatların gətirilməsi təqdirə layiqdir.

Amerika Birləşmiş Ştatlarında çap olunmuşdur.
İlk Buraxılış - Aprel 2003
İkinci Çap - Dekabr 2003
Kağızda Çap Edilmişdir.
Albert Eynşteyn İnstitutu
427 Nyuberi Küçəsi
Boston, MA 02115 – 1801, ABŞ
Tel: ABŞ + 617-247-4882
Fax: ABŞ + 617-247-4035
E-mail: einstein@igc.org
Website: www.aeinstein.org

ISBN 1-880813-12-2

Bu kitab Razi Nurullayevin rəhbərliyi altında tərcümə və redaktə edilmişdir

## ETİRAF VƏ TƏŞƏKKÜR

Bu kitabin Azərbaycan dilində ərsəyə gəlməsində göstərdiyi köməyə görə böyük alim, dinc mübarizə nəzəriyyəsinin yaradıcısı, ABŞ-ın Albert Eynşteyn adına İnstitutunun böyük elmi işçisi, professor, dostum Cin Şarpa dərin minnətdarlığımı bilidirirəm. Etiraf edirem ki, onun məsləhətləri və qayğısı olmadan bu kitabın ərsəyə gəlməsi çətin olardı.

Ümid edirəm ki, bir il ərzində çəkdiyimiz əmək hədər getməyəcək və siyasi partiyalar, hökumət və digər aidiyyatı qurumlar bundan vətənin - Azərbaycanın mənafeyi naminə səmərəli istifadə edəcəklər. Bu kitabın ərsəyə gəlməsi üçün göstərdikləri köməyə görə Norveç Krallığının ölkəmizdəki səfirliyinə dərin minnətdarlığımı bildirirem.

Razi Nurullayev
Demokratik İslahatlar Uğrunda Cəmiyyətin (DİUC) həmsədri, Politoloq

**"YOX" Hərəkatının təsisiçisi**

**əlaqə: mail@diuc.org**

**Url: http://www.diuc.org**

## İÇİNDƏKİLƏR

**BİRİNCİ FƏSİL**

Müharibə və başqa zorakılıqlar üçün real alternativlərin hazırlanması
Münaqişələrdə təsir vasitələrinə ehtiyac
Mübarizənin başqa texnikası mövcudluğu
Dinc mübarizə halları
Dinc mübarizənin xüsusiyyət və metodları
Anlaşılmazlıqlar
Uğur qazanmaq üçün tələblər
Repressiya və silahsız siyasi döyüş
Rəqibin gücünün sarsıdılması
Uğura doğru dörd yol
Incə texnikanın tətbiqi
Müharibə və digər zorakılıqlara güvənmə hallarının azaldılması

**İKİNCİ FƏSİL**

Dinc Mübarizədə Strateji Planlaşdırmanın Əhəmiyyəti
Strategiyanın əhəmiyyəti
Müdrik strategiyaların qısa ifadəsi
Planlaşdırma və fəaliyyət dərəcələri
Dinc strategiyanın bəzi başlıca elementləri

**ÜÇÜNCÜ FƏSİL**

Repressiya Rejimlərinə qarşı Dinc Mübarizə üçün Strateji Planlaşdırmada Atılan Addımlar
Strateji planlaşdırmanın elementləri

**BİRİNCİ ƏLAVƏ**

Dinc Mübarizəyə dair Mühüm Terminlər Lüğəti

**İKİNCİ ƏLAVƏ**

Dinc Aksiyanın 198 metodu
Dinc Etiraz və İnandırma metodları
Əməkdaşlıqdan İmtina metodları
İctimai Əməkdaşlıqdan İmtina
İqtisadi Əməkdaşlıqdan İmtina: İqtisadi Boykotlar
İqtisadi Əməkdaşlıqdan İmtina: Tətillər
Siyasi əməkdaşlıqdan imtina
Dinc Müdaxilənin metodları

**ÜÇÜNCÜ ƏLAVƏ**
Əlavə oxu üçün
Minnətdarlıq

## BİRİNCİ FƏSİL

## MÜHARİBƏ VƏ DİGƏR ZORAKILIQ HALLARINA REAL ALTERNATİVLƏRİN HAZIRLANMASI

Cəmiyyətdə və siyasətdə zorakılıq, onun terrorizm, diktatura, basqılar, işğallar və ya soyqırım formasında olmağından asılı olmayaraq, geniş miqyasda ciddi bir problem kimi tanınır.

Zorakılıq probleminin həll olunması üçün verilən bütün təkliflər və ya onun xüsüsi ifadə formaları uğursuzluqla rastlaşıblar. Ehtimal olunur ki, problemin həll olunmamasının səbəbi, həmin təkliflərin, onun təbiətinin qeyri-adekvat başa düşülməsinə əsaslanmasıdır. Problemi anlamadan, onu həll etmək nəinki çətindir, hətta mümkün deyil.

Bu təşəbbüsün məqsədi, cəmiyyətdə və siyasətdə geniş yayılan zorakılıq probleminin təbiətini, onun həlli üçün nəyin tələb olunduğunu təklif edən müxtəlif perspektivləri araşdırmaqdan ibarətdir.[1]

Biz münaqişənin hərbi və digər zorakı vasitələrinə olan inamı kəskin şəkildə azaltmağı mümkün edəcək şəraitləri təhlil etməliyik. Biz, zorakılığın nəyə görə həm haqq, həm də nahaq işlər üçün vacib sayıldığını və bu haldan kənarda fundamental dəyişikliklərə necə nail olmağın mümükünlüyünü araşdırmalıyıq.

Bu essedə təqdim olunan perspektiv sadə olsa da, siyasi və beynəlxalq münaqişələrdə zorakılıq problemini həll etmək üçün əsas ola bilər.

Qəbul etmək lazımdır ki, cəmiyətdə və siyasətdə münaqişələr qaçılmazdır və çox hallarda arzuolunandır. Bəzi münaqişələr kompromis yaradan üsullarla, yəni danışıqlar, dialoqlar və barışıqlar kimi yumşaq metodlarla həll oluna bilər. Bu, təhlükə altında olan məsələlərin əsaslı olmadığı halda mümkündür. Hətta bu halda belə, münaqişənin danışıqlar yolu ilə həllinə, ədalətin düşünülmüş şəkildə birgə qiymətləndirilməsi ilə deyil, daha çox rəqiblərin nisbi güc imkanları ilə təsir edilir.

Lakin münaqişələrin çoxunda əsas məsələlər ya təhlükə altındadır, ya da ki onların təhlükə altında olduğuna inanılır. Bunlar “kəskin münaqişələrdir”. Onlar kompromis yaradan hər hansı həll yoluna uyğun hesab edilmir.

Kəskin münaqişələrdə ən azı tərəflərdən biri rəqibə qarşı münaqişə aparmağı vacib və uyğun hesab edir. Çox vaxt inanılır ki, kəskin münaqişələr azadlığın, ədalətin, dinin və ya hansısa mədəniyyətin inkişafı və ya düşmənin zorakılığına müqavimət göstərib onu məğlub etmək üçün mübarizə aparmaq üçündür. Düşməncəsinə zorakılıq, təzyiqləri, ədalətsiziyi və ya diktaturanı zorla qəbul etdirmək üçün tətbiq edilə bilər. Düşməncəsinə zorakılıq həmçinin insanın mənəvi və ya dini prinsiplərinə və ya ləyaqətinə təcavüz etmək və hətta hansısa xalqın sağ qalmasını təhlükə altına almaq üçün tətbiq edilə bilər.

Kəskin münaqişələrdə ən azı tərəflərdən biri asılılığı, təslim olmanı və ya məğlubiyyəti, öz prinsipləri, inamları, bütün cəmiyyət və bəzən yaşam üçün fəlakət hesab edə bilər.

---

[1] Burada “Zorakılıq” sözü, mənəvi və ya siyasi baxışlar termini kimi deyil, şəxslərə qarşı xəsarət yetirmək və ya öldürmək və ya belə nəticələrin təhlükəsindən asılı olan fəaliyyət kimi məhdud mənada işlənir.

Bu cür vəziyyətlərdə, insanlar mümkün qədər qətiyyətlə münaqişə aparmağın lazım olduğuna inanır.

### Münaqişələrin aparılması üçün vasitələrə ehtiyac

Müharibə və başqa zorakılıqlar ayrı-ayrı niyyətlər üçün tətbiq olunub, lakin kəskin münaqişələrdə siyasi və beynəlxalq zorakılıq yaxşı və nəcib olduğuna inanılan səbəblərin müdafiəsi üçün bir vasitə kimi xidmət edib. Zorakılığın şər qüvvədən passiv asılılığına mühüm alternativ olmasına inam mövcud idi.

Əksər siyasi sistemlərdə, müharibə və başqa zorakılıqlar “son qərar” kimi xidmət edir. Yəni, bütün ehtimal olunan yumşaq vasitələrin uğursuz olması və yaxud da uğursuzluğa doğru getdiyi ehtimal olunduqda, tətbiq edilə bilən ən güclü fəaliyyət, təzyiq, cəzalar və ya güc tətbiq etmək üçün sonuncu vasitələrin zorakılıq formaları kimi qəbul edilir. Zorakılıq, yaxşı və layiqli olan hər şeyin əldə ediləcəyinə və qorunacağına inam olduqda tətbiq edilir.

Əgər zorakılığın bu rolu başa düşülməzsə, o zaman kəskin münaqişələrdə müharibəyə və digər zorakılığa arxalanma hallarının azalması qeyri-mümkündür.

Əsas məsələlərin təhlükə altında olduğu münaqişələrdə, danışıqlar və dialoq təklifini adekvat cavab hesab edərək fəaliyyət göstərmək sadəlöhvlük olardı. Rəqiblər çox çətin ki, öz məqsəd və niyyətlərindən mübarizəsiz əl çəksinlər. Münaqişənin “qələbə və yalnız qələbə” variantını məqsəd qoymaq ağılsızlıq olardı. Qəddar diktatorlar və soyqırım günahkarları qalib olmağa layiq deyildirlər.

Bir çox onilliklərdən bəri əlimizdə olan sübutlar göstərir ki, münaqişələrin aparılmasında tətbiq edilən zorakılıq, onlara qarşı edilən etirazlar vasitəsilə aradan qaldırılmayıb. Kəskin münaqişələrdə insanların əksəriyyəti müharibə və digər zorakılıq halarından imtina etməyəcək, çünki onlar inanırlar və ya onlara deyilib ki, belə zorakılıq mənəvi və dini prinsipləri pozur. Nəticələrin əksinə bağlılıq qeyri realdır.

Təxminən qırx il bundan əvvəl psixiatr Jerom D. Frank qeyd etmişdi ki, əksər xalqlar üçün sülh ən yüksək dəyər deyildir.[2]

İnsanların əsas inamlarının və cəmiyyətlərinin təbiətinin hücuma məruz qaldığı münaqişədə, gücsüz və köməksiz vəziyyətə düşmək təhlükəsi qarşısında qalan insanlar, qruplar və dövlətlər zorakılıqdan imtina etməyəcək.
Kəskin münaqişələrdə, bir xalqın prinsipləri, idealları, cəmiyyəti və ya mövcudluğunu saxlamaq və ya müdafiə etmək üçün müharibə və digər zorakılıq vasitələrindən son fəaliyyət vasitəsi kimi istifadə olunmaması üçün bir neçə digər güclü fəaliyyət vasitələri əldə edilə bilən olmalıdır. Zorakı varianta bərabər olan və ya ondan daha böyük olan uğur şansı ilə münaqişənin güclü olması üçün əvəzedici vasitələr olmalıdır.

Bu ehtiyacdan irəli gələrək, bu cür funksional alternativlər, keçmişdə tələb olunduğuna inam olan zorakılıq üçün “ağır hallar”la məşğul olmağa qadir olmalıdır. Həmin “ağır hallar”a diktaturalara qarşı münaqişələr, xarici təcavüzlər və işğallar, daxili işğallar və təzyiqlər, soyqırıma cəhd və kütləvi qovulmalar və qətlllər aiddir.

---

[2] Jerom D. Frank, “Müharibənin Aradan Qaldırılmasında Psixoloji Problemlər İİİ *Dünya Müharibəsinin Qarşısının Alınmasında: Bəzi təkliflər. Nyu York:* Saymon və Şuster, 1962

Bu cür alternativin mümkünlüyünə aparan çox mühüm yol o fakta əsaslanır ki, hətta diktarualaların gücü belə cəmiyyətdəki güc mənbələrindən asılıdır, və onlar da öz növbəsində çoxsaylı institut və insanların əməkdaşlığından asılıdır; bu əməkdaşlıq davam edə və etməyə bilər. Bunları bir qədər sonra daha ətraflı gözdən keçirəcəyik.

**Başqa bir Mübarizə texnikası da var**

Zorakı münaqişə üçün bu cür əvəzedici - real alternativdir. Çox vaxt kəskin münaqişələrin aparılmasında müharibənin və başqa zorakılıqların ümumi olmaması unudulur. Bir çox müxtəlif vəziyyətlərdə, əsrlərdən süzülərək və mədəni maneələrdən keçərək, zaman-zaman başqa bir mübarizə texnikası da tətbiq olunmuşdur. Həmin texnika, başqa bir istiqamətə yönəlməyə deyil, inadcıl olmaq və güclü rəqiblərə güclü müqavimət göstərmək bacarığına əsaslanıb.

Bəşər tarixi boyu, bir çox münaqişələrdə bir tərəf zorakılıq vasitəsilə deyil, psixoloji, ictimai, iqtisadi və siyasi metodlarla və ya bunların birləşməsi ilə mübarizə aparıb. Bu növ münaqişələr yalnız məsələlərin nisbətən məhdud və rəqiblərin nisbətən ləyaqətli olduğu vaxt aparılmayıb. Çox vaxt mübarizənin bu alternativ forması o zaman tətbiq edilirdi ki, onda əsas məsələlər təhlükə altında idi və insafsız rəqiblər ifrat repressiya törətmək istəyirdi və ya törədə bilərdi. Həmin repressiyalara edamlar, döyülmələr, həbslər, azadlıqdan məhrum etmələr və dəhşətli kütləvi qətllər aid idi. Belə repressiyaya baxmayaraq, müqavimətçilərin yalnız seçdikləri dinc silahlar vasitəsilə mübarizə aparmaqda təkid etdikdə, onlar bəzən qələbə qazanırdı.

Bu texnika dinc fəaliyyət və ya dinc mübarizə adlanır. Bu “başqa bir qəti qərardır”. Kəskin münaqişələrdə bu adətən müharibəyə və başqa zorakılıqlara alternativ kimi xidmət edə bilər.

**Dinc mübarizə halları**

Geniş şəkildə fərqlənən mədəniyyətlər, tarixi dövrlər və siyasi şəraitlərdə dinc mübarizə baş verib. O, həm “Qərbdə” və həm də “Şərqdə” baş verib. Dinc mübarizə, sənayeləşmiş və qeyri-sənaye ölkələrində baş verib. O, konstitusiyalı demokratiyanın bayrağı altında imperiyalara, xarici işğallara və diktatura sistemlərinə qarşı istifadə edilmişdir. Dinc mübarizə saysız hesabsız tərəflər və qruplar adından, və hətta bir çox insanların inkar etdiyi məsələlər uğrunda aparılıb. Ondan həmçinin, dəyişikliyin qarşısını almaq və ya ona yardım etmək məqsədilə istifadə edilib. Onun istifadəsi bəzən məhdud zorakılıq ilə qarışdırılıb.

Təhlükə altında olan məsələlər müxtəlif olublar. Bura ictimai, iqtisadi, mənəvi, dini, milli, humanitar və siyasi məsələlər daxil idi və sadədən əsasa doğru dəyişiblər.

Baxmayaraq ki, tarixçilər ümumilikdə bu mübarizə növünə laqeyd yanaşıblar, bu birmənalı olaraq çox köhnə bir fenomendir. Bu texnikanın tarixinin çox hissəsi şübhəsiz ki, itirilib, yerdə qalanların isə çoxuna əhəmiyyət verilməyib.

Dinc mübarizənin tətbiqinin bir çox hallarda hökumətlərlə əlaqəsi ya az, ya da heç olmayıb. Bu hallara əməyin idarə olunmasındakı münaqişələr və sosial bərabərlik naminə təzyiqləri zorla tətbiq etmək və ya müqavimət göstərmək üçün edilən cəhdlər daxildir. Dinc hərəkat həmçinin etnik və dini münaqişələrdə və universitet administrasiyası və tələbələr arasında olan mübahisələr kimi bir çox digər situasiyalarda

istifadə edilib. Həmçinin tərəflərdən birinin dinc hərəkət etdiyi, mülki əhali və hökumətlər arasındakı mühüm münaqişələr də çox geniş formada baş verib. Aşağıdakı misallar bu növə aiddir.

On səkkizinci əsrin sonlarından iyirminci əsrin əvvəllərinə kimi, dinc aksiya texnikası bir sıra müxtəlif münaqişələrdə tətbiq olunub: müstəmləkə üsyanları, beynəlxalq siyasi və iqtisadi münaqişələr, dini münaqişələr və köləliyə qarşı müqavimət hərəkatlarında. Bu texnikanın məqsədi fəhlələrin təşkilatçılıq haqlarını, qadın hüquqlarını, kişilərin və qadınların ümumi səsvermə hüquqlarını təmin etməkdən ibarət idi. Bu növ mübarizə milli müstəqillik qazanmaq, iqtisadi nailiyyətləri artırmaq, soyqırıma müqavimət göstərmək, diktaturaların təməlini dağıtmaq, vətəndaş hüquqlarına nail olmaq, ayrıseçkiliyə son qoymaq və xarici işğallara və dövlət çevrilişlərinə müqavimət göstərmək məqsədilə tətbiq edilmişdi.

Bu texnikanın iyirminci əsrin əvvəlində tətbiq oluması hallarına Rusiyada baş verən 1905-ci il İnqilabının əsas elementləri daxil idi. Müxtəlif ölkələrdə getdikcə artan həmkarlar ittifaqları geniş şəkildə tətil və iqtisadi boykotlardan istifadə etmişdilər. 1908-ci, 1915-ci və 1919-cu illərdə Çin Yapon məhsullarını boykot etdi. 1920-ci ildə Almanlar Kapp Putça qarşı və 1923-cü ildə isə Rurun Fransa və Belçika tərəfindən işğalına qarşı dinc mübarizədən istifadə etdi. 1920-ci və 1930-cu illərdə Hindistan milliyətçiləri Mohandas K. Qandinin başçılığı altında Britaniya idarəetməsinə qarşı mübarizələrində dinc aksiyadan istifadə etmişdi.

1940-cı ildən 1945-ci ilədək müxtəlif Avropa ölkələrində, xüsusilə Norveç, Danimarka və Niderlandda, xalq nasist işğalına və idarəetməsinə müqavimət göstərmək məqsədilə dinc mübarizədən istifadə etdi. Berlində, Bolqariyada, Danimarkada və başqa yerlərdə yəhudilərin tam məhv edilmədən xilas etmək üçün dinc mübarizədən istifadə edilmişdi. El Salvador və Qvatemalanın hərbi diktatorları 1944-cü ilin yazında qısa dinc mübarizə nəticəsində sıradan çıxarılmışdır. İrqi ayrıseçkiliyə qarşı vətəndaş hüquqları uğrunda dinc mübarizə xüsusilə 1950-ci və 1960 – cı illərdə ABŞ-ın Cənubunda qanunları və çox əvvəllər yaradılmış siyasətləri dəyişməyə müvəffəq olmuşdu. 1961-ci ilin Aprel ayında Əlcəzairin Fransız müstəmləkəsində Fransız hərbçilərinin əməkdaşlıqdan boyun qaçırması Fransadakı xalq nümayişləri ilə əlaqəli idi və Debre-de Qoll hakimiyyətinin müqaviməti Parisdə bununla bağlı çevrilişin ola biləcəyindən əvvəl Əlcəzair şəhərindəki dövlət çevrilişinin qarşısını aldı.

1968-ci və 1969-cu illər zorla soxulma haqqında Varşava Paktının ardınca, Çexlər və Slovaklar düşünülmüş dinc mübarizə və əməkdaşlıqdan imtina vasitəsilə səkkiz ay ərzində Sovet hakimiyyəti üzərində tam nəzarəti saxladılar. 1953-cü ildən 1990-cı ilədək, Şərqi Avropanın, xüsusilə Şərqi Almaniya, Polşa, Macarıstan və Baltik Dövlətlərinin Kommunist rejimli ölkələrindəki disidentlər, dəfələrlə azadlıq uğrunda güclənən, dinc mübarizələrdən istifadə etmişdilər. Polşadakı təcrübəli Həmrəylik mübarizəsi 1980-ci ildə qanuni müstəqil həmkarlar ittifaqının tələblərini dəstəkləmək üçün tətillər ilə başladı və 1989-cu ildə Polşa Kommunist rejiminin sona çatması ilə yekunlaşdı. Dinc mübarizə həmçinin 1989-cu ildə Çexoslovakiyada və 1991 – ci ildə Şərqi Almaniya, Estoniya, Latviya və Litvada Kommunist diktaturasına demək olar ki, son qoymuşdu.

1991-ci ildə Moskvadaki “uğursuz” dövlət çevrilişinə cəhd əməkdaşlıqdan imtina və itaətsizlik vasitəsilə məğlub edilmişdi. Dinc etirazlar və kütləvi müqavimət xüsusilə 1950-ci 1990-cı illər arasında Cənubi Afrikada Avropa hökmranlığının və *İrqçilik* siyasətinin

sarsıdılmasında mühüm rol oynamışdır. Filipində Markos diktaturası 1986-cı ildə dinc üsyan vasitəsilə dağıdılıb.

1988-ci ilin İyul və Avqust aylarında Birma demokratları yürüşlər və itaətsizlik ilə hərbi diktaturaya qarşı etiraz etdi və üç hökuməti devirdi. Sonda həmin mübarizə yeni bir hərbi dövlət çevrilişi və kütləvi qətllərə yol açdı. 1989-cu ildə Çinin üç yüzdən artıq şəhərində (o cümlədən PekininTiananmen Meydanında) tələbələr və başqa vətəndaşlar hökumətin korrupsiya və əsarətinə qarşı rəmzi etiraz aksiyaları təşkil etdi, lakin sonda etirazlar hərbçilər tərəfindən kütləvi qətllərin törədilməsi ilə nəticələndi.

1990-cı və 1999-cu illər arası Kosovodakı Albanlar zülmkar Serb idarəçiliyinə qarşı əməkdaşlıqdan imtina kampaniyaları apardı. Ancaq Kosovo hökumətinin hüquqi müstəqilliyə nail olmaq üçün faktiki dinc strategiyası olmadığından, partizan Kosovo Azadlıq Ordusu zorakılığa əl atdı. Bu "etnik təmizlənmə" adı altında qəti Serb repressiyası və kütləvi qətllərlə nəticələndi və NATO müdaxiləsinə və bombardmanına gətirib çıxardı.

1996-ci ilin Noyabrından başalayaraq Serblər prezident Miloşeviçin avtokratik hakimiyyətinə qarşı Belqradda və başqa şəhərlərdə gündəlik paradlar və etirazlar keçirdilər və 1997-ci ilin yanvar ayının ortalarında seçkidə baş vermiş saxtakarlıqların aradan qaldırılmasına nail oldular. Lakin həmin vaxt, mübarizəni davam etdirmək üçün Serb demokratlarının strategiyası yox idi və Miloşeviç diktaturasına son qoymaq üçün kampaniyaya başlaya bilmədilər. 2000-ci il oktyabrın əvvəllərində Otpor (Müqavimət) hərəkatı və digər demokratlar diqqətlə planlaşdırılmış dinc mübarizə ilə yenidən Miloşeviçə qarşı ayağa qalxdılar və diktatura dağıdıldı.
2001-ci ilin əvvəlində korrupsiyada ittiham olunan prezident Estrada, "Xalq Hakimiyyəti İki" kampaniyasında Filipinos tərəfindən hakimiyyətdən uzaqlaşdırıldı.
Həmin münaqişələri və onların nəticələrini daha yaxşı başa düşmək üçün bu texnikanın xüsusiyyətini anlamaq vacibdir.

**Dinc mübarizənin xüsusiyyətləri və metodları**

Bu növ mübarizələrdə insanlar zorakılıqdan istifadə etmək əvəzinə üç ümumi davranış üsulunu sınaqdan keıirib.
Birincisi, onlar yürüşlər, növbətçilik, vərəqələr paylamaq və ya xüsusi rənglərdə paltarlar geyinmək kimi simvolik etirazlardan istifadə edərək bir sıra hədəflərə çatmaq üçün öz dəstəklərini və ya ona etirazını bildirmişdir.

İkincisi, müqavimətçilər mövcud əməkdaşlığı davam etdirməkdən və ya rəqiblərlə və ya müəyyən qaydalarla yeni əməkdaşlığa başlamaqdan imtina etdi. Onlar əməkdaşlıqdan imtina yolunu məşq edib. Bu isə ictimai, iqtisadi və siyasi formaları qəbul edib. Məsələn, müqavimətçilər rəqiblərin ictimai boykotlarını təcrübədən keçirib və ya tədbirlərdə və bayramlarda və yaxud onların rəqiblərini dəstəklədiyinə inandıqları görüşlər və ya məktəblərdə iştirak etməkdən imtina edib.

Bəzən müqavimətçilər mallar və xidmətlərlə təchiz etməkdən və ya onları nəql etməkdən və yaxud da malların və məhsulların alqı-satqısından imtina edərək iqtisadi əməkdaşlığı dayandırmışlar. Bəzən isə rəqib ölkə ilə iqtisadi əlaqələr hökumətin təşəbbüsü ilə dayandırılıb. Bunlar hamısı iqtisadi boykotun formaları olub.

Fəhlə tətillərinin qısa sürən rəmzi işin dayandırılması, adi zavod tətili, kütləvi ümumi tətil və ya şəhərin və ya ölkənin iqtisadi cəhətdən qapanması kimi müxtəlif formalarından

istifadə olunub.

Siyasi əməkdaşlıqdan imtinaya saxta seçkilərin boykot edilməsi, rejimin legitimliyindən imtina, birbaşa nəzarət olmadan itaətsizlik, hökumət işçiləri ilə əməkdaşlıqdan imtina və "mənəviyyatsız" qanunlara vətəndaşların tabesizliyi daxil idi.

Üçüncüsü, aktiv müdaxilə və sistemin normal fəaliyyətinin pozulması müxtəlif psixoloji, ictimai, iqtisadi, fiziki və siyasi formalarda tətbiq edilib. Dinc müdaxilənin çoxsaylı metodlarına, idarələrin tutulması, küçələrdə oturaq tətillər, aclıq aksiyaları, yeni iqtisadi təsisatların yaradılması, dinc müdaxilələr, administrativ vasitələrin qüvvəyə minməsi, həbslərə əl atma və paralel hökumətin qurulması daxildir.

Dinc aksiyanın metodları onu tətbiq edən insanların məqsədləri və ya inancları ilə deyil, tətbiq edilən fəaliyyət üsulu ilə müəyyən olunur və kateqoriyalara bölünür. Çox zəruridir ki, bu texnika ayrı –ayrı əqidələrdəm olan insanlar tərəfindən tətbiq edilib və çox fərqli fenomen olan mənəvi və ya dini dinclikdə etiqad tələb etmir. Çox vaxt iştirakçılar və liderlər (əgər tanınırdılarsa), zorakılıqdan çəkinirdi, çünki onun həm lazımsız, həm də əks nəticə verəcəyi anlaşılırdı. İkinci Əlavədə dinc aksiyanın 198 metodu verilib və Cin *Şarpın Dinc Aksiyanın Siyasəti,* İkinci Hissə, *Dinc Fəaliyyətin Metodlarında* tarixi misallarla tam təqdim edilmişdir (bax. Əlavə Üç: Əlavə Oxu Üçün).

## Yanlış anlayışlar

Saxta anlayış və təsəvvürlərin geniş yayılmış silsiləsi dinc mübarizənin başa düşülməsinə mane olub. Aşağıda bəzi düzəlişlər verilib:

- Zorakılığın həmişə cəld işlədiyi və dinc mübarizənin isə həmişə çox vaxt apardığına inanılır. Bu inamların hər ikisi yanlışdır.
- Dinc mübarizənin əksər hallarda zəif olmasına inanılır, ancaq əslində bu mübarizə çox qüclü ola bilər. O repressiyalı rejimi iflic edə və hətta dağıda bilər.
- Dinc mübarizənin xarizmatik liderə ehtiyacı yoxdur.
- Dinc mübarizə müxtəlif mədəniyyətlərə aid fenomendir.
- Dinc mübarizə hər hansı dini etiqad tələb etmir (əlbəttə ki, heç bir spesifik dini etiqad), ancaq bəzən o dini məqsədlər üçün istifadə edilib.
- Dinc mübarizə dini və ya mənəvi prinsipli dincliklə eyni məna daşımır, o sadəcə çox fərqli bir fenomendir. Bu fərqə olduğundan aşağı qiymət vermək yox, onu aydınlaşdırmaq lazımdır.
- Baxmayaraq ki, hələ bu texnikanın yalnız demokratik və humanist rəqiblərə qarşı uğur qazana biləcəyinə inanılır, bəzən o Nasist və Kommunist rejimləri daxil olmaqla amansız rejimlərə, diktaturalara qarşı uğurlu olmuşdur.
- Bəzi insanlar və qruplar deyir ki, dinc mübarizə yalnız zalımların ürəyini yumşaltmaq ilə uğur qazana bilər. Bununla belə, o, məcbur edici qüvvə olub, hətta qəti diktaturaları məhv edib.

## Uğur üçün tələblər

Bu növ mübarizə üsulunun seçilməsi heç də uğura zəmanət vermir və eynilə də zorakılıqdan istifadə də uğura zəmanət deyil. Zorakılıqla olduğu kimi bu texnika ilə də uğura qazanmaq üçün bəzi tələblər mövcuddur. Sadəcə zorakılıqdan çəkinmək və "dinc" sözünü demək arzuolunan nəticələr verə bilməz.

Dinc mübarizənin keçmiş nümunələrindən bəziləri öz məqsədlərinə yetməkdə

uğursuzluğa düçar olublar. Bəziləri isə yalnız məhdud qələbələr qazanıb. Bəzən qələbənin ömrü qısa olub, çünki insanlar bundan, nə öz nailiyyətlərini birləşdirmək və yaxud təsis etmək üçün istifadə etmiş, nə də ki, azadlıqlarına qarşı olan yeni təhlükələrə effektiv müqavimət göstərmişlər. Başqa hallarda, adi kampaniyadakı qələbə güzəştlər əldə edirdi, lakin tam məqsədlərə nail olmaq üçün yeni mübarizələr tələb olunurdu.

Bununla belə, bəzi hallarda, zorakı müqavimət nəticəsində mümkün olmayacaq başlıca qələbələr əldə olundu. Bu nəticələri daha yaxşı başa düşmək üçün bu texnikanın mahiyyətini anlamaq lazımdır.

Dinc mübarizənin "fəaliyyət göstərdiyi" yolların bir haldan digərinə əhəmiyyətli dərəcədə dəyişməsinə baxmayaraq, müəyyən dinc münaqişələrdə mövcud ola bilən iki xüsusi həlledici prosesi müəyyən etmək vacibdir. Onlar: (1) repressiyanın təsirinə tabe olmamaq və bəzən onu ləğv etmək bacarığı və (2) rəqibin güc mənbələrini parçalamaq və sarsıtmaq bacarığıdır.

**Repressiya və siyasi ciu-citsu (yapon silahsız müdafiə və hücum sistemi)**

Təbii ki, diktatorlar, istədikləri kimi hərəkət etdikləri hakimiyyətləri üçün təhlükə yaradan fəaliyyətlərə və ideyalara qarşı çox həssasdırlar. Ona görə, zülmkarların, onlara tabe olmayanları, tətil edənləri və ya əməkdaşlıqdan imtina edənləri hədələməsi və cəzalandırması ehtimal olunur. Lakin, repressiyalar və hətta vəhşiliklər həmişə aslılığın lazımı səviyyəyə gətirə bilmir və rejimin fəaliyyət göstərməsinə tam imkan yaratmağa yardım etmir.
Bəzi hallarda, (lakin hamısında yox), qəddar repressiya "siyasi ciu-citsu" adlanan xüsusi prosesin başlanğıcını qoya bilər.

Rəqiblərin dinc mübarizə ilə məşğul olarkən üzləşdiyi çətinliklər ilk növbədə bu texnikanın xüsusi dinamikası və prosesləri ilə bağlıdır. Bu, zorakı sanksiyalar tətbiq etməyə qadir və hazır olan rəqiblərə qarşı fəaliyyət göstərmək üçün hazırlanıb. Lakin, zorakı repressiyaya qarşı dinc aksiya vasitələri ilə aparılan siyasi mübarizə xüsusi, assimetrik münaqişə vəziyyəti yaradır. Dinc müqavimətçilər öz rəqiblərinə qarşı Yapon döyüş sənəti olan ciu-citsu-ya bənzər siyasi gediş tətbiq etmək üçün zorakı aksiyanın əksinə olan dinc vasitələrin asimmetriyasından istifadə edə bilərlər. Fəaliyyət növləri arasında olan ziddiyyət siyasi cəhətdən rəqiblər arasındakı tarazlığı pozur və bununla apardıqları repressiyanın öz ziyanlarına işləməsinə və hakimiyyətlərinin zəifləməsinə səbəb olur. Mübarizəni davam etdirərək dinc yolda qalmaqla müqavimətçilər öz qüvvəsini artırmış olacaq. Bu proses siyasi ciu-citsu (sihalsız döyüş) adlanır.

Siyasi ciu-citsu hər hansı və ya hər üç mümkün qrup vasitəsilə rəqiblərdən uzaqlaşmağa gətirib çıxarır: rəqib qrupun özünün üzvləri, məsələlərin təsirinə məruz qalan xalq nümayəndələri və bilavasitə münaqişəyə cəlb olunmayan üçüncü tərəflər. Bu uzaqlaşma rəqiblərin düşərgəsində daxili müxalifətin böyüməsi ilə nəticələnə bilər. Bu həmçinin müqavimətçilərin sayını və müqavimətin miqyasını artıra bilər. Eyni zamanda bu çox vaxt üçüncü qrupu rəqiblərə qarşı və müqavimətçilərin xeyrinə yönəldir.

**Rəqiblərin gücünün sarsıdılması**

Siyasi ciu-citsu hər bir situasiyada və ya dinc mübarizənin hər halında işləmir. Dinc mübarizənin işlədiyi digər başlıca istiqamət, rəqiblər və hətta diktaturalar tərəfindən

tələb olunan qüc mənbələrinin sarsıdılması yoludur. Bu proses əsasən, məqsədi bir şeyi edib-etməmək üçün hökumətə təzyiq göstərmək və ya onu məcbur etmək, yaxud da rejimi dağıtmaq olan mübarizələrdə işləyir.

Səbəb sadədir. Diktatorlara idarə etdikləri xalqın yardımı lazımdır, çünki onsuz onlar tələb olan siyasi güc mənbələrini təmin edə və saxlaya bilməzlər. Bu siyasi güc mənbələrinə aşağıdakılar aiddir:

- **Hakimiyyət** və ya legitimlik;
- **İnsan resursları**, hökmdarlara tabe olan, onlarla əməkdaşlıq edən və onlara yardım edən şəxslər və qruplar;
- **Bilik və bacarıqlar**, rejimə lazım olan və əməkdaşlıq edən şəxslər və qruplar tərəfindən təmin olunan;
- **Dərkedilməz faktorlar**, xalqı hökmdarlara tabe olmağa və dəstək verməyə vadar edən psixoloji və ideoloji faktorlar;
- **Maddi resurslar**, əmlaka, təbii resurslara, maliyyə resurslarına, iqtisadi sistemə və rabitə və nəqliyyat vasitələrinə nəzarət və ya müdaxilə imkaları; və
- **Sanksiyalar**, rejimə öz siyasətini həyata keçirmək və mövcud olmaq üçün lazım olan asılılıq və əməkdaşlığı təmin etmək məqsədilə təhdid edən və ya tətbiq edilən cəzalar.

Lakin bu mənbələrin hamısı rejimin qəbul edilməsindən, əhalinin asılılığından və itaətindən və cəmiyyətin bir çox insanlarının və institutlarının əməkdaşlığından asılıdır.

Buna görə, siyasi hakimiyyət həmişə öz gücü və mövcudluğuna görə çoxsaylı insan və institutların əməkdaşlığı ilə onun mənbələrinin tamamlanmasından asılıdır – bu əməkdaşlıq davam etdirilə də bilər, etdirilməyə də. Ona görə də, siyasi hakimiyyət həmişə potensial cəhətdən kövrək olur və həmişə onun aid olduğu cəmiyyətdən asılı olur.

Bu mühüm asılılığa və əməkdaşlığa zəmanət verilmir və hər bir güc mənbəyi məhdudiyyətlər və itkilərə həssas olur. Dinc aksiya bilavasitə bu mənbələrin hər birinin iştirakına zərbə endirmək üçün hədəfə alına bilər. Bu güc mənbələrinin hər birinin təchizatı, bir neçə faktordan asılı olaraq, potensial cəhətdən zəiflədilə və hətta sarsıdıla bilər.

Əməkdaşlıqdan imtina və itaətsizlik lazımi güc mənbələrini təchiz edən zəruri tabeçiliyi və əməkdaşlığı sarsıdır. Məsələn, hökmdarların legitimliyinin inkar edilməsi həm yardımlar, həm də ümumi əhali tərəfindən tabelik üçün həlledici səbəbləri zəiflədir. Geniş xalq itaətsizliyi böyük təzyiqedici problemlər yaradır. Kütləvi tətillər iqtisadiyyatı iflic edə bilər. Bürokratiyanın geniş yayılmış inzibati əməkdaşlıqdan imtinası hökumət əməliyyatlarını poza bilər. Rəqiblərin polis və qoşunlarının qiyamları dinc müqavimətçiləri əzmək və rejimlərini saxlamaq üçün onların bacarıqlarını məhv edə bilər.

Həmin güc mənbələri olmadan, rəqiblərin hakimiyyəti zəifləyir və nəhayət parçalanır. Rejim siyasi aclıqdan ölür.

Alim politoloq Karl. V. Doyçun 1953-cü ildə qeyd etdiyi kimi, ictimai fikrin əksinə olaraq, hətta totalitar diktaturalar belə əhalinin və idarə etdikləri cəmiyyətin dəstəyindən

asılıdır.[3]

## Uğura aparan dörd yol

Uğurlu dinc mübarizələr dörd əsas istiqamət üzrə "işləyib". Bu fərqli fəaliyyət istiqamətləri xüsusi münaqişə vəziyyətindən, təhlükə altında olan məsələlərdən, müqavimət göstərən əhalinin sosial stukturundan, rəqiblərin təbiətindən, seçilmiş əsas strategiyadan (əgər varsa), üstün dəyişmə mexanizmindən, istifadə edilən xüsusi metodlardan, və müqavimətçilərin bacarıq, nizam-intizam və innadcılığından yüksək dərəcədə aslıdır. Göstərilən təzyiqlər hər biri fərqli dərəcələrdə olmaqla, psixoloji, ictimai, iqtisadi və siyasi ola bilər.

Bundan əlavə, dinc mübarizə ictimai və siyasi sistemin stabilliyinə təsir göstərə və ya onun fəaliyyətini dəyişə bilər. Mübarizə həmçinin rəqiblərin xüsusi siyasətləri davam etdirmək bacarığına da təsir göstərə bilər. Müəyyən münaqişələrdə dinc əməkdaşlıqdan imtina və itaətsizlik rəqiblərin idarə etmə bacarığını sarsıda və hətta onların rejimini parçalaya bilər.

Dinc mübarizənin müxtəlif münaqişələrdə necə işləməsində başlıca fərqli cəhətlər var. Məsələn, əmək haqlarının artırılması uğrunda aparılan yerli fəhlə tətilinin dinamikası, azlıqların daha böyük hüquqlar uğrunda apardığı münaqişədən və yaxud da diktaturanı dağıtmaq uğrunda aparılan mübarizədən fərqlənəcək.

Uğur qazanılan hallarda, dəyişiklik dörd mexanizmdən birinin nəticəsi kimi baş tuta bilər. Nadir hallarda dinc mübarizənin nəticəsi olaraq münasibət dəyişiklikləri rəqibləri könüllü olaraq güzəştlər etməyə vadar edib, çünki, bu zaman – *dəyişmə* düzgün variantdır. Çox hallarda iqtisadi və ya siyasi əməkdaşlığın ləğv olunması rəqibləri kompromisə - *barışığa* razı olmağa məcbur edib. Bəzən itaətsizlik və əməkdaşlıqdan imtina o qədər güclü olub, o qədər bacarıqla hədəfə alınıb və rəqiblərin güc mənbələri tamamilə zəiflədilmişdir ki, rəqiblərin təslim olmaqdan – *dinc məcburiyyətdən* başqa çıxış yolları qalmayıb. Bəzi nadir hallarda, itaətsizlik və əməkdaşlıqdan imtina o dərəcədə kütləvi hal alıb və rəqiblərin güc mənbələri tamamılə parçalanıb ki, rejim - *tərkib hissələrə ayrılmaqla* - sadəcə hissələrə bölünmüşdü.

---

## Zərif Texnikanın Faydaları

Dinc mübarizənin bu texnikasının cəmiyyətdə və siyasətdə zorakılıq probleminin həllinə əsas yardımçı vasitə olub olmaması, onun kəskin münaqişələrdə zorakılığa arxalanmanı azaltmağa yardım edə bilməsindən çox asılıdır. Bu, kəskin münaqişələrdə zorakılığın əvəzinə istifadə etmək üçün kifayət qədər effektiv ola bilərmi? Bəzi hallarda bir sıra şəxslər tərəfindən verilən cavab "Bəli" ola bilər, lakin başqa hallarda cavab "bəlkə də", "yəqin" və ya "xeyr" ola bilər. Belə cavablar yəqin ki, həmin şəxslərin bu texnika haqda olan anlayışının və kəskin münaqişələrdə dinc mübarizənin zorakılığın effektiv əvəzedici ilə təmin edə bilmə bacarığına dair fikrin səviyyəsindən asılı olacaq.

Bu mübarizə üsulunun onun keçmiş tətbiqindən daha effektiv olaraq həyata keçirilməsi yollarını öyrənmək mümkündür. Bunu, bu texnikanın tələblərinə dair bilgilərimizi artırmaqla, bu bilgiləri və anlayışları geniş yaymaqla və bu texnikadan gələcək kəskin münaqişələrdə istifadə etmək üçün ümumi və xüsusi plan və strategiyanı artırmaqla

---

[3] Karl V. Dötç, "*Monolitdəki çatlar*: Totalitar Sistemlərdə Tərkib Hissələrə Ayrılma İmkanları və Nümunələri" Karl. J. Fridrix, *Totalitarizm*, səh. 308-333. Kembric: Harvard Universitetinin Nəşri, 1954.

etmək mümkündür.

Zorakılıq probleminin qənaətbəxş həll yolunun hazırlanması və dinc mübarizənin gələcək siyasi inkişafınının araşdırılması bizdən bu texnikanın indiki və qarşıdakı potensial roluna diqqət yetirməyi tələb edir. Bu, bir çox insanların və hökumətlərin hərbi vasitələrin və başqa zorakılıqların tələb olunduğuna inandıqları kəskin münaqişələrdə xüsusilə vacibdir. Ortaya belə suallar çıxır: bu texnikanı biz nə dərəcədə başa düşə və təkmilləşdirə bilərik və o, nə vaxtacan zorakılıq üçün effektiv əvəzedici ola bilər?

Dinc mübarizənin gələcək siyasi inkişafı aşağıdakı münaqişə formalarında zorakılığa dinc alternativləri daxil etməlidir:

- Diktaturanın zərərsizləşdirilməsi;
- Yeni dövlət çevrilişlərinin əngəllənməsi və yeni diktaturaların qarşısının alınması;
- Xarici təcavüz və işğallardan müdafiə olunmaq;
- Yerli əhalinin yaşam tərzlərinin və mövcudluğunun saxlanması;
- Sosial və iqtisadi ədalətsizliklərin aradan qaldırılması;
- Demokratik vərdişlərin və insan haqlarının inkişaf etdirlməsi, qorunması və yayılması; və
- Dinc vasitələrin əlavə üsullarla demokratik cəmiyyətlərə calanması.

**Müharibəyə və başqa zorakılıqlara güvənmə hallarının azaldılması**

Bu və ya digər məqsədlər və xüsusi münaqişələr üçün praktiki strateji planlar, dinc seçimin effektiv tətbiq edilməsi üçün inkişaf etdirilməlidirlər. Bu ardıcıllıqla həyata keçirildiyinə görə, zaman-zaman kəskin münaqişələrdə incə dinc mübarizəni zorakılıqla əvəz etmək mümkün olacaq. Bu çağırışa cavab vermək üçün - dinc mübarizənin potensialını kəskin münaqişlərə yönəltmək məqsədilə onu öyrənmək və inkişaf etdirmək üçün- daha geniş araşdırma, təhlil, strateji təlimlər, siyasi inkişaf, planlaşdırma və cəsur fəaliyyət tələb olunur.

Tarixçilərin, ictimai psixoloqların, sosioloqların, ictimai və siyasi nəzəriyyəçilərin, politoloqların, strateqlərin və başqalarının xidmətlərinə də ehtiyac var. Yalnız dinc mübarizəni tədqiq etmək deyil, həmçinin digər mövzuları da, o cümlədən diktaturaların və başqa zülmkar sistemlərin zəif cəhətlərini də öyrənmək vacibdir.

Eyni zamanda strateji düşünmək və gələcək dinc mübarizələr üçün strategiyları planlaşdırmaq bacarığını inkişaf etdirmək və yaymaq yollarını da öyrənmək vacibdir.

Bu cəhdlərin tətbiqi müasir cəmiyyətin və güclü milli və beynəlxalq qüvvələrin mühüm formalaşmış tendensiyalarını aşmağı və çox vaxt onlara qarşı hərəkət etməyi tələb edəcək. Hakimiyyətin bir yerdə mərkəzləşməsi, dövlətlər arası siyasətin hərbiləşməsi, problemlərin həll olunmasının ənənəvi metodlarının hegemonluğu və başqa amillər dinc mübarizənin potensial uyğunluğunun düşünülmüş mülahizələrinə qarşı işləyəcək.

Lakin, bunu deməyə əsas var ki, cəmiyyətin müəyyən kəskin münaqişələrdə zorakı və ya dinc mübarizəyə güvənmək yolunu seçməsinin ictimai və siyasi struktur üçün yüksək dərəcədə əhəmiyyətli məntiqi nəticəsi var. Bu birmənalı olaraq göstərir ki, zorakı münaqişə daha da mərkəzləşdirilmiş və potensial olaraq repressiv bir siyasi sistem yaratmağa meyl edir, ancaq dinc münaqişə isə daha çox desentralizasiya olunmuş və xalq tərəfindən idarə olunan siyasi sistemin yaranmasına meyllidir. Hərbi bacarıqdan

əhalini əzmək üçün daxildə istifadə edilə bilər, lakin dinc mübarizə isə azadlıqlara nail olmaq və onları qorumaq və mərkəzləşmiş repressiyaya müqavimət göstərmək üçün əhali tərəfindən istifadə edilə bilər.

Dinc təzyiqlərin və gücün tətbiqi vasitələrinin potensial uyğunluğu və davamlılığı haqda ehtiyatla yaradılmış təsəvvür çox güman ki, bu vaxtacan qeyri-adekvat olaraq araşdırılmış real variantları aşkar edəcək. Bu yanaşma müasir siyasətdə və beynəlxalq əlaqələrdə zorakılığa güvənməni zəiflətmək yolu ilə fundamental dəyişikliklər etmək potensialına malikdir.

Biz münaqişənin zorakı formalarını dinc formalar ilə əvəz etməyə və bunun köməyi ilə hərbi və başqa zorakı vasitələrə arxalanma hallarını azaltmağa nə qədər müvəffəq olacağıqsa, bir o qədər də bu, bizim münaqişənin effektiv dinc alternativlərini inkişaf etdirə və tətbiq edə biləcəyimiz dərəcə ilə yüksək səviyyədə müəyyən ediləcək.

Qaçılmaz bir sual ortaya çıxır: indi biz bu texnikanı təkmilləşdirməyə və effektiv və güclü fəaliyyət vasitəsilə zorakılığın qəti təsirlərini rədd etmək, əvəz etmək və aradan qaldırmaq məqsədilə münaqişələrdə tətbiqi  üçün onu uyğunlaşdırmağa və qəbul etməyə cəhd edəcəyikmi?

## İKİNCİ FƏSİL

## DİNC MÜBARİZƏDƏ STRATEJİ PLANLAŞDIRMANIN ƏHƏMİYYƏTİ

Strategiyadan istifadə edilməsi bizə hərbi münaqişələrdən çox yaxşı məlumdur. Əsrlər boyu hərbi zabitlər hərbi kampaniyalar üçün strateji planlaşdırma ilə məşğul olmuşlar və Sun Tzu, Klauzvits və Liddel Hart kimi dahi filosoflar hərbi strategiyanı araşdırıb və təkmilləşdirmişlər. Adi hərbi toqquşmada və partizan müharibələrində, təcrübəli strategiyanın tətbiqi işin effektli olması üçün başlıca tələbdir.

Effektiv hərbi mübarizə müdrik strategiya, planlaşdırma və həyata keçirilmə tələb etdiyi kimi, dinc aksiya da həmçinin sağlam strateji planlaşdırma əsasında fəaliyyət göstərdikdə çox effektiv olur. Müdrik strategiyaların formalaşması və qəbulu dinc mübarizənin gücünü daha da artıra bilər.

**Strategiyanın əhəmiyyəti**

Əgər kimsə, nəyəsə nail olmaq istəyirsə, həmin kəs maksimum effektivlik üçün kiminsə mümkün resurslarından və məqsədə nail olmaq üçün vasitələrdən istifadə edərsə, onun həmin məqsədə nail olmaq şansı daha böyük olacaq. Bu, indiki zamandan (yəni məqsədə nail olunmayıb) gələcəyə (onun nail olunduğu yerə) hərəkət etmək üçün hazırlanan strateji plana malik olmaq deməkdir. Strategiya indiki zamandan gələcəkdə arzu olunan vəziyyətə çatmağı daha da mümkün edən fəaliyyət kursunun planlaşdırılmasına aiddir.

Məsələn, əgər kimsə bir yerdən başqa yerə səyahət etmək istəyirsə, o əvvəlcədən bunu necə edəcəyini planlaşdırmalıdır. O, piyada gedəcək? Qatarla? Avtomobillə? Təyyarə ilə? Hətta bu halda belə plan tam olmur. Həmin kəsin səyahətin xərcini və digər xərcləri ödəmək üçün pulu varmı? Əgər səyahət uzun çəkəcəksə, həmin kəs harada qalacaq və yeyəcək? Səyahət üçün sənədlər, pasportlar və vizalar tələb olunurmu, və əgər belədirsə, o, onları necə əldə edəcək? Səfər zamanı həmin kəsin yoxluğunu doldurmaq üçün nizama salınacaq işlər varmı?

Bəzi şəxslərin adi məqsədlər üçün gündəlik həyatda planlaşdırdığı bu cür düşüncə və planlaşdırma ictimai və siyasi hərəkatların liderləri tərəfindən nəzərə alınmalıdır. Ancaq təəssüf ki, belə hərəkatlar tərəfindən strateji planlaşdırmaya nadir halda layiq olduğu diqqət yetirlir.
Bəzi xalqlar sadəlöhvcəsinə düşünür ki, əgər onlar sadəcə öz məqsədlərini kifayət qədər güclü, israrla və davamlı olaraq qoruyurlarsa, bu bir təhər həyata keçəcək. Digərləri guman edir ki, əgər onlar öz prinsiplərinə və ideallarına sadiq qalırlarsa və bədbəxtliklər qarşısında onlara şahid olursa, onda onlar məqsədlərinə nail olmaq üçün əllərindən gələn hər şeyi edirlər. Arzu olunan məqsədlərin qorunması və ideallara sadiq olma heyranedicidir, lakin status kvonu dəyişmək və göstərilən məqsədlərə gətirmək üçün vəziyyəti hədəfdə olan məqsədlərə doğru dəyişməsi üçün onlar öz özlüyündə heç də eyni deyil.

Əlbəttə ki, cəmiyyəti dəyişmək və ya cəmiyyətdə dəyişikliklərin qarşısını almaq, və yaxud da xarici işğalları aradan qaldırmaq ya da ki, cəmiyyəti hücumlardan qorumaq yollarını axtarmaq səyahəti planlaşdırmaqdan daha da mürəkkəb bir tapşırıqdır. Yalnız hələ ki, belə məqsədlər axtaran insanlar nadir halda hərəkət etməzdən öncə hərtərəfli strateji planın hazırlamağın böyük əhəmiyyətini tam anlamır.

Çox vaxt ictimai və siyasi hərəkatlarda, cəlb olunan fərdlər və qruplar etiraf edir ki, onlara necə fəaliyyət göstərmələrini planlaşdırmaq lazımdır, lakin bunu yalnız çox məhdud, qısa müddətli və ya taktiki əsasda edirlər. Onlar daha geniş, daha uzunmüddətli strateji fəaliyyət planı qurmağa cəhd göstərmirlər. Ola bilsin ki, onlar bunun vacib olduğunu görmür. Həmin vaxt, onlar ola bilsin həmin terminlər üzərində düşünmək və tədqiq etmək iqtidarında olmurlar. Yaxud onlar davamlı olaraq fikirlərini kiçik məsələlər üzərində cəmləməklə, rəqiblərin təşəbbüslərinə təkrarən cavab verməklə və qısa müddətli fəaliyyətlərdə həyəcanla hərəkət etməklə, özlərinin mütəmmadi olaraq daha böyük məqsədlərdən yayındırılmasına imkan yaradırlar. Onlar ümumi cəhdlərini,

öz məqsədlərinə çatmağa doğru apara bilən strategiyanın planlaşdırılmasına və ya bir neçə alternativ strategiyaların araşdırılmasına vaxtların və qüvvələrini paylaşdıra bilmirlər.

Razılaşmaq lazımdır ki, bəzən insanlar məqsədlərinə çatmaq üçün strategiya planlaşdırmağa cəhd etmir, çünki daxilən onlar inanmırlar ki, məqsədə nail olmaq mümkündür. Onlar özlərini qarşısıalınmaz qüvvələrin zəif və aciz qurbanları kimi görür və inanırlar ki, edə biləcəkləri ən yaxşı şey haqlı olduqları olan inamla müdafiə olunmaq, bunu təsdiq etmək və hətta onun uğrunda ölməkdir. Nəticə etibarilə, onlar məqsədlərini başa çatdırmaq üçün strateji düşünməyə və planlaşdırmağa cəhd belə etmir.

Strateji planlaşdırmanın bu cür uğursuzluqlarının nəticəsi odur ki, uğur şansları radikal olaraq azaldılır və bəzən aradan qaldırılır. Birinin gücü məhv edilir. Birinin fəliyyətləri isə effektsiz olur. Boş yerə qurbanlar verilir və bir tərəf ilə yaxşı yola gedilmir. Strateji planlaşdırmanın alınmaması, çox güman ki, məqsədlərə nail olmaq üçün uğursuzluqla nəticələnir.
Dəqiq strateji fəaliyyət planı qurmadan:

- Enerji kiçik məsələlərə yönəldilə və effektsiz tətbiq oluna bilər;
- Işi irəli aparmaq üçün imkanlar istifadəsiz qalacaq;
- Rəqiblərin təşşəbbüsləri hadisələrin gedişini müəyyən edəcək;
- Bir tərəfin zəiflikləri artacaq və məqsədə çatmaq cəhdinə zərərli təsir göstərəcək;
- Məqsədə çatmaq üçün edilən səylərin uğur qazanmaq üçün çox az şansı olacaq.

Əksinə, parlaq strategiyaların qurulması və qəbul edilməsi uğur şanslarını artırır. Strateji plana uyğun olaraq istiqamətləndirilən fəaliyyət, arzu olunan məqsədə doğru müəyyən edilmiş istiqamətdə hərəkət etmək üçün birinin güc və hərəkətlərini cəmləməsinə imkan yaradır. Onlar əsas məqsədləri təmin etmək və rəqiblərin zəif cəhətlərini daha da ağırlaşdırmağa yönəldilə bilər. İtkilər və digər xərclər azaldıla və qurbanlar əsas hədəfə daha effektiv xidmət edə bilər. Dinc kampaniyaya müvəffəq olma şansları artırılır.

**Mudrik strategiyaların qurulması**

Müdrik strategiyanın seçilməsi və qurulması aşağıdakıları tələb edir:

- Mübarizənin aparılacağı ümumi konteksin dəqiq mənası;
- Birinin olduğu və olmaq istədiyi yer arasındakı fərqin təbiətinin müəyyən edilməsi;
- Məqsədə çatmaq üçün, mövcud maneələrin və məsələyə kömək edə bilən amillərin qiymətləndirilməsi;
- Rəqiblərin, bir kəsin öz qrupunun və kampaniyaya yardımçı və ya mane ola bilən üçüncü tərəfin güclü və zəif cəhətlərinin qiymətləndirilməsi;
- Birinin məşğul ola biləcəyi fəaliyyətin bir neçə potensial kurslarının məziyyət və məhdudiyyətlərinin qiymətləndirilməsi;
- Mövcud variantlar arasında dayanıqlı istiqamətin seçilməsi və ya tamamilə yenisinin hazırlanması;
- Əsas məqsədi təqib etməkdə hansı daha kiçik (taktiki) planlar və xüsusi fəaliyyət metodlarının tətbiq olunmasını müəyyən edən ümumi fəaliyyət planının müəyyən edilməsi (yəni, ümumi strateji planı həyata keçirmək üçün hansı, xüsusilə lokallaşdırılmış və ya daha qısa müddətli fəaliyyətlər və yaxud addımlar atılmalıdır).

**Planlaşdırma və fəaliyyət səviyyələri**

Strateji planın hazırlanmasında planlaşdırma və fəaliyyətin müxtəlif səviyyələrinin olduğunu anlamaq lazımdır. Ən yüksək səviyyədə böyük strategiya dayanır. Sonra isə strategiyanın özü, bunun ardınca isə taktika və metodlar gəlir.

*Böyük strategiya* - münaqişədə öz məqsədlərinə çatmaq üçün millətin və ya digər bir qrupun bütün müvafiq və mümkün rersurslarını (iqtisadi, insan, mənəvi, siyasi, təşkilati və s.) əlaqələndirməyə və istiqamətləndirməyə xidmət edən ümumi anlayışdır.

Əsas strategiyaya daxildir: məqsədin düzgünlüyü, situasiyada digər təsirlərin qiymətləndirilməsi və istifadə ediləcək fəaliyyət texnikasının seçilməsi (məsələn, dinc mübarizə, şərti siyasət, partizan müharibəsi və ya şərti müharibə), məqsədə necə nail olunacaq və uzun müddətli nəticələr.
Əsas strategiya mübarizə aparmaq üçün daha məhdud strategiyaların seçilməsində başlıca çərçivə yaradır. Bu planlaşdırma səviyyəsinə həmçinin, ümumi vəzifələrin xüsusi qruplar arasında bölüşdürülməsi və mübarizədə istifadə olunması üçün resursların onların arasında paylanması daxildir. Bundan başqa, bura mübarizənin özünün, uğrunda münaqişə aparılan məqsədlərə nail olunması ilə necə bağlı olduğu haqda fikir də daxildir.

*Strategiya* - münaqişədəki (dinc və ya zorakı) məqsədlərə ən yaxşı necə nail olmaq haqqında anlayışdır. Strategiyaya mübarizəni harada, necə aparmağın lazım olub olmaması və müəyyən nəticələri əldə etmək üçün maksimum effektivliyə necə nail olmaq aiddir. Strategiya arzu olunan hədəflərə çatmaq üçün mümkün vasitələrin praktiki paylanması, adaptasiyası və tətbiqi üçün nəzərdə tutulmuş plandır.

Strategiyaya həmçinin strateji situasiyanı elə əlverişli şəkildə inkişaf etdirmək səyləri daxildir ki, bu açıq mübarizə olmadan da uğur gətirə bilər. Mübarizənin özünə tətbiq olunduqda, startegiya kampaniyanın necə hazırlanacağı və öz məqsədlərinə nail olmaq üçün onun ayrı – ayrı komponentlərinin ən əlverişli şəkildə necə uyğunlaşdırılacağı haqqında başlıca ideyadır.

Strategiyaya, xüsusi fəaliyyətlərdən irəli gəlməsi güman edilən nəticələr haqqında təsəvvür; geniş fəaliyyət planının inkişaf etdirilməsi; münaqişə qruplarının daha kiçik fəaliyyətlərdə istifadə olunmasının bacarıqla müəyyənləşdirilməsi; seçilmiş texnikanın işlədilməsi zamanı uğur qazanılması üçün olan tələblərin nəzərdən keçirilməsi; və uğurdan düzgün istifadə edilməsi daxildir.

Strategiya böyük strategiyanın imkanı daxilində işləyir. Fəaliyyət taktikası və metodları strategiyanı həyata keçirmək üçün istifadə edilir. Daha effektiv olması üçün, taktika və metodlar elə seçilməli və təbiq olunmalıdır ki, onlar həqiqətən strategiyanın tətbiqinə yardım etsin və uğur üçün olan tələblərə nail olmağa imkan yaratsın.

Dinc mübarizədə strategiya qurularkən aşağıdakı aspektlər nəzərə alınmalıdır: birinin öz məqsədləri, resursları və gücü; rəqiblərin məqsədləri, resursları və gücü; üçüncü tərəfin həqiqi və mümkün rolu; rəqiblərin müxtəlif mümkün fəaliyyət kursları və vasitələri; birinin öz müxtəlif mümkün fəaliyyət kursları və vasitələri (hücum və müdafiə); bu texnika ilə uğur qazanmaq üçün tələblər, onun fəaliyyət dinamikası və onun dəyişmə mexanizmləri.

*Taktika* – məhdud fəaliyyət planıdır: o, daha geniş strategiyanın bir hissəsi kimi

məhdud məqsədə çatmaq üçün mümkün olan mübarizə vasitələrindən daha yaxşı istifadə oluna bilməsi barədə konsepsiyaya əsaslanır. Necə ki, strategiya böyük strategiya daxilində qurulur, taktika da geniş strategiya daxilində qurulan məhdud fəaliyyət kursu ilə məşğul olur. Xüsusi bir taktika yalnız döyüşün və ya kampaniyanın ümumi strategiyasının bir hissəsi kimi başa düşülə bilər.

Taktika xüsusi fəaliyyət metodlarının necə tətbiq olunması və ya xüsusi döyüşçülər qrupunun xüsusi vəziyyətdə necə hərəkət edəcəyi ilə məşğul olur. Taktikalar strategiyalardan daha qısa zaman müddəti üçün və ya daha kiçik ərazilərdə (coğrafi, institut və s.) və ya daha məhdud insan sayı ilə, daha məhdud məqsədlər üçün və ya bunların bəzilərinin birləşdiyi hallarda tətbiq edilir.

*Metod* - dinc mübarizənin texnikası daxilində xüsusi fəaliyyət vasitələrinə əsaslanır. Buraya, tətillərin, boykotların, siyasi əməkdaşlıqdan imtinanın bir çox formaları və buna oxşar onlarla xüsusi fəaliyyət formaları aiddir. (Tarixi hadisələrdə istifadə edilmiş dinc aksiyanın 198 metodunun siyahısı üçün Əlavə İkiyə baxın).
Dinc mübarizə üçün effektiv və məsuliyyətli strateji planın hazırlanması böyük strategiya, strategiyalar, taktikalar və metodların ehtiyatlı qurulması və seçilməsindən asılıdır.

**Dinc strategiyanın bəzi aparıcı elementləri**

Dinc mübarizənin tətbiqində bütün hallara uyğun olan yeganə bir strategiya mövcud deyil. Həqiqətən, dinc fəaliyyət texnikası müxtəlif münaqişəli vəziyyətlərə cavab vermək üçün müxtəlif cür strategiyaların inkişafına şərait yaradır. Əlavə olaraq, dinc mübarizə çox vaxt başqa mübarizə vasitələrinin istifadə olunması ilə böyük strategiyada birləşdirilə bilər.

Bu o demək deyil ki, dinc mübarizə bütün digər fəaliyyət texnikaları ilə uyğundur. Məsələn, zorakılığın dinc mübarizə ilə birlikdə tətbiqi, dinc mübarizənin işlədiyi müxtəlif prosesləri sıradan çıxarır və bunun vasitəsilə də ən yaxşı halda onun effektsiz olmasına və ən pis halda isə dağılmasına və ya məğlubiyyətinə səbəb olur.

Lakin kifayət qədər aydındır ki, iş üzrə faktın müəyyən edilməsi, aşkarlıq, ictimai təhsil, rəqiblərə müraciətlər, danışıqlar və bu kimi digər hallar dinc mübarizənin tətbiqi ilə bağlı bir çox vəziyyətlərdə səmərəli istifadə edilə bilər. Məsələn, çox vaxt bu vasitələrdən iqtisadi boykotlar və əmək tətilləri ilə bağlı istifadə edilir.

Dinc mübarizə kampaniyasının planlaşdırılması üçün zəruri olan əsas prinsip budur: öz mübarizənizi elə planlaşdırın ki, münaqişənin uğuru yalnız özünüzə güvənməklə mümkün olsun. Bu Çarlz Styuart Parnelin 1879-1880-ci illərdə keçirilən, icarə haqqından imitina tətili zamanı İrlandiya kəndlilərinə verdiyi mesaj idi: “yalnız özünüzə güvənin”, başqa heç kəsə yox.

Fərz edək ki, güclü dinc mübarizə planlaşdırılır və aparılır; başqalarından məhdud və dinc dəstək axtarmaq çox yaxşıdır, lakin mübarizəni udmaq yalnız mübarizə aparanların öz qruplarından asılı olmalıdır. Bu zaman əgər başqa heç kəs yardım etmirsə, fərz edək ki, strateji planlaşdırma sağlam olub, bu zaman birinin hələ də məqsədinə nail olmaq üçün şansı var. Lakin əgər, qələbə və məğlubiyyət üçün cavabdehlik başqalarına verilibsə, onda onlar irəli getməyəndə mübarizə məğlubiyyətə uğrayacaq. Hər bir halda, güclü dinc mübarizə qələbə və ya məğlubiyyətin yalnız onların öz səyləri ilə müəyyən ediləcəyini düşünərək fəaliyyət göstərən incik əhali tərəfindən aparıldıqda, cavabdeh

xarici dəstəyin ortaya çıxması daha çox ehtimal olunur.
Dinc mübarizələr üçün müdrik strategiya və taktikaların qurulması, *Dinc Mübarizənin Siyasəti*ndə təqdim edildiyi kimi, dinc mübarizənin dinamika və mexanizmlərini hərtərəfli başa düməyi tələb edir. (Bax *Əlavə Üç*: Əlavə Oxu Üçün). Onların işini asanlaşdıran planlara və fəaliyyətlərə qarşı diqqətli olmaq və əgər həyata keçirilərsə, effektivliyə səbəb ola bilən məhz həmin faktorları ayıranları isə rədd etmək vacibdir.

Psixoloji elementlər və mənəviyyat, coğrafi və fiziki elementlər, vaxtın müəyyən edilməsi, güc və saylar, məsələ və gücün bir yerə toplanması arasındakı əlaqə, təşəbbüsün dəstəklənməsi və strategiya və taktikanın hədəflərinə çatmağa yardım edə bilən xüsusi fəaliyyət üsullarının seçilməsi kimi əlavə amillərə də diqqət yetirmək lazım gələcək.

Dinc mübarizə üçün strateji planlaşdırmanın əhəmiyyətini həddindən artıq vurğulamaq olmaz. Bu ictimai və siyasi hərəkatları daha da effektiv etmək üçün açardır. Bu hərəkatın öz məqsədlərinə nail olacağına zəmanət verə bilməz, lakin o əlbəttə ki, uğur qazanmaq üçün yeni imkanlar yaradacaq.[4]

---

[4] Gələcək dinc mübarizələr üçün strategiyaların necə planlaşdırılması haqqında qaydalar üçün Cin Şarpın, *Dinc Mübarizənin Aparılması*na baxın: İyirminci Əsrin Təcrübəsi və İyirmi Birinci Əsrin Potensialı. Qarşıda.

# ÜÇÜNCÜ FƏSİL

## REPRESSİYA REJİMLƏRİNƏ QARŞI DİNC MÜBARİZƏLƏRİN STRATEJİ PLANLAŞDIRILMASINDA ATILAN ADDIMLAR

Dinc mübarizə- ictimai, psixoloji, iqtisadi və siyasi etiraz üsulları, əməkdaşlıqdan imtina və dağıdıcı müdaxilə yolu ilə münaqişə aparmaq üçün bir texnikadır.

Bu, əsas insan inadkarılığının – fikir ayrılığında qətiyyət və bacarıq, əməkdaşlıqdan imtina etmək, tabe olmamaq və parçalamaq - ictimai, iqtisadi və siyasi tətbiqi üzərində qurulmuş texnikasıdır. Başqa sözlə, insanlar onlardan xahiş olunan işləri etməkdən imtina edə və ya onlara qadağan olunan şeyləri edə bilər.

Bütün hökumətlər özlərinin məhz mövcudluğu üçün əməkdaşlığa və itaətkarlığa arxalanır. Əgər xalq həmin əməkdaşlığı saxlamağı və ya geri götürməyi seçərsə, hökumətin öz çəkisini saxlamaq üçün heç bir dayağı olmur.

Bəşər tarixi boyu dinc mübarizə, əsarətə qarşı çıxmaq, diktaturaları parçalamaq, xarici işğallara müqavimət göstərmək, nifrət edilən azlıqları qorumaq və azadlığı genişləndirmək üçün müxtəlif növ münaqişələrdə tətbiq edilmişdir.

Keçmişdə belə mübarizələr daha çox intuisiya, təsadüfi hadisələr, improvizasiya və öz məqsədlərini aydın müəyyən etmədən və ya onlara nail olmaq üçün əslində nəyin tələb olunduğunu başa düşmədən hərəkət edən insanların fəaliyyətinin nəticəsi olmuşdur.

Bu mübarizələrin bəziləri taktiki (və ya qısa müddətli) planlaşdırmanın dərəcəsini aşkar etdi, lakin onların çox az bir hissəsi ümumi mübarizənin hazırlanması və aparılması üçün boyük strateji plan altında fəaliyyət göstərib.

Indi, dinc mübarizə ilə məşğul olan qrupların çarxı yenidən icad etməsinə artıq ehtiyac yoxdur. Bu texnikanın daha dərindən başa düşülməsi, bu biliklərin bölüşülməsi və strateji və ya uzun müddətli planlaşdırmanın tətbiqi ilə dinc mübarizə daha da effektiv olur.

### Strateji planlaşdırmanın əsasları

Aşağıda dinc mübarizəni planlaşdırarkən diqqət tələb edən bəzi əsas elementlər verilib:

***I Mərhələ: İlkin qiymətləndirmə və təhlil***

- Təhlükə altında olan məsələləri hər iki tərəfdən göründüyü kimi tədqiq edin;
- Cəmiyyətdə və ya ölkədə mövcud olan mədəni, siyasi və sosial–iqtisadi sistemlərin, o cümlədən əhali bölgüsünün təhlilini hazırlayın;
- Strateji smeta[5] hazırlayın, yəni: münaqişənin hər iki tərəfinin güclü və zəif cəhətlərini müəyyən edin. Buraya daxildir: mübarizə aparan tərəflərin və özlərinin dayaq nöqtələri kimi xidmət göstərən institutların güc mənbələrinin müəyyən edilməsi, hər iki tərəfə yararlı olan və ya onlar tərəfindən nəzarət edilən resursların araşdırılması, xüsusi ehtiyacları qarşılamaq üçün hər bir tərəfin

[5] Bu termin və anlayış Robert Helvey tərəfindən dinc strateji fəaliyyət mövzusuna təqdim olunmuşdur.

digərindən asılılıq dərəcəsinin yoxlanılması və hər iki tərəfin nisbi mübarizə gücü;

- Rəqiblərin hansı güc mənbələrini zəiflətmək və ya aradan qaldırmaq üçün daha məqsədəuyğun olduğunu müəyyən edin;
- Münaqişənin üçüncü tərəflərinin, eləcə də "passiv iştirak edən" bütün əhalinin potensial rolu və münasibətlərini müəyyən edin və yoxlayın.
- Mümkün fəaliyyət kurslarına təsir edən digər xarici faktorları müəyyən edin: cöğrafiya, hava, iqlim, infrastrukturlar və s.
- Müqavimətçilərin məqsədlərinə nail olmasına səbəb ola bilən başqa hansı təzyiq vasitələrinin olmasını müəyyən edin;
- Müəyyən zaman çərçivəsi daxilində mövcud şəraitlərin dinc mübarizə aparmaq üçün əlverişli olub olmamasını müəyyən etmək üçün yuxarıdakı amilləri nəzərdən keçirin. Həmin şəraitlərin hansı "sabitdir", hansı dəyişəndir, hansılarına isə müqavimətçilərin aksiyaları və ya onların rəqibləri tərəfindən birbaşa təsir edilə bilər?

---

### *II Mərhələ: Strategiyanın qurulması*

- Bütöv münaqişə üçün böyük strategiya qurun. Mübarizənin məqsədlərini aydın, xüsusi terminlərlə müəyyən edin. Həmin məqsədə çatmaq üçün dinc mübarizənin necə işlədilməsini ümumi terminlərlə hesablayın. Bu, mübarizə qrupunun bütün müvafiq və mümkün resurslarını əlaqələndirərək və istiqamətləndirərək mübarizə aparmaq üçün geniş, uzun müddətli, başlıca anlayışdır.
- Münaqişənin başlıca məqsədinə vahid ümummilli kampaniyada nail olmaq mümkündürmü? Əgər mümkündürsə, onu necə etməyi planlaşdırın. Əgər deyilsə, ikinci lakin mühüm məqsədlər üçün daha məhdud kampaniyaları daxil etmək məqsədilə mübarizənin mərhələlərə bölünməsi lazım gələcək;
- Mübarizə müddətində əldə ediləcək daha məhdud məqsədlər üçün fərdi kampaniyaların strategiyasını hazırlayın. Bu, münaqişədə xüsusi kampaniyanın planlaşdırılmasında ortaya çıxan kim, nə, harada, nə zaman və necə suallarına cavab vermək üçün böyük strategiyanın geniş çərçivəsinin daha müfəssəl olduğu halda olur.
- Seçilmiş strategiyanı həyata keçirəcək xüsusi qısa müddətli taktikalar və fərdi fəaliyyət metodları seçin. Xüsusi strateji kampaniya çərçivəsi daxilində və yalnız geniş strategiya qurulduqdan sonra taktika və metodların ehtiyatla seçilməsi çox vacibdir. Seçilə bilən dinc metodlara etiraz və inam, əməkdaşlıqdan imtina və müdaxilə daxildir. Əhəmiyyətli dərəcədə böyük strategiyadan və ümumi hədəflərdən, strateji qiymətdən və fərdi kampaniyanın məqsədindən asılı olaraq onların bəziləri müxtəlif situasiyalarda digərlərindən daha yaxşı işləyəcək. Bəzi metodlar rejimin güc mənbələrinin parçalanması və məhdudlaşdırılmasında digərlərindən daha bacarıqlı olacaq.
- Qəbul edilmiş strateji planın öz məqsədi, tətbiq ediləcək təzyiq növü və seçilmiş taktika və metodları ilə uyğun olmasını təmin edin.

### *III Mərhələ: Bilik və bacarıqların artırılması*

- Əmin olun ki, mübarizə üçün seçilmiş strategiyalar onu həyata keçirmək üçün əhalinin bacarığı daxilindədir. Əgər belə deyilsə, əhalinin bilik və bacarıqlarını gücləndirmək üçün lazım gələcək səyləri götür-qoy edin. Yoxsa strategiyaların dəyişilməsi lazım gələcək.
- Rəqiblərin nəzarətindən kənarda olan təşkilatları və təsisatları gücləndirin, xüsusilə də əgər böyük strategiya əməkdaşlıqdan imtina və itaətsizliyin tətbiqi

uğrunda mübarizə zamanı bu müstəqil qurumlardan istifadə etməyə çağırarsa.
- Üçüncü tərəfin yardımı üçün plan qurun, lakin ona arxayın olmayın.

**IV Mərhələ: Açıq mübarizə**

- Böyük strategiya, strategiya və seçilmiş metodlara uyğun olaraq seçilmiş məqsədlərə çatmaq üçün, xüsusilə rəqibin güc mənbələrini məhdudlaşdırmaqda və parçalamaqda müqavimətçilərin gücünü rəqiblərin zəif cəhətlərinə qarşı cəmləşdirin.
- Əmin olun ki, strateji plan, müqaviməti zəiflədəcək zorakılıq olmadan intizamlı qaydada tətbiq olunur.
- Əmin olun ki, mübarizə fəaliyyəti müqavimətçilərə dəstək verməyə kömək edir.
- Müqavimətçilərin mühüm resurslardan istifadə imkanlarını təmin edin.
- Rəqiblərin müvazinətini qırın.
- Rəqiblərin repressiyasına tabe olmayın, lakin öz mübarizə formalarınız üzərində dayanın.
- Reaksiya verməkdənsə fəaliyyət göstərin. Təşəbbüsü və təkanı saxlayın. Mübarizə rəqiblərin deyil müqavimət qrupunun şərtləri əsasında aparılmalıdır.
- Davamlı olaraq strateji plana əsasən mübarizənin gedişini yenidən təyin edin və qiymətləndirin.

***V Mərhələ: Münaqişənin başa çatması***

- Müvəffəqiyyət, məğlubiyyət və ya qarışıq nəticələr?
- Münaqişədən sonra qiymətləndirmə aparın və gələcək üçün plan qurun.

Bunlar dinc strateji mübarizənin tətbiqi üçün yalnız elementar qeydlərdir.[6]

[6] Strateji planın daha ayrıntılı tövsiyyələri üçün Jen Şarpın, *Dinc Mübarizənin Aparılması*: İyirminci Əsrin Təcrübəsi və *İyirmi Birinci Əsrin Potensialı*na bax. Qarşıda.

## ƏLAVƏ BİR

## DİNC MÜBARİZƏDƏ İŞLƏNƏN MÜHÜM TERMİNLƏR SÖZLÜYÜ

**Barışıq**: Dinc aksiyada dəyişmə mexanizmi: burada rəqiblərin hələ də seçimi olmasına baxmayaraq, onlar kompromisə getmək və dinc müqavimətçilərin müəyyən tələblərinə icazə vermək məsələsini həll edir. Barışıq o vaxt baş verir ki, rəqiblər nə öz baxışlarını dəyişiblər, nə də ki, dinc yolla məcbur ediliblər, lakin bu nəticəyə gəliblər ki, kompromis tənzimlənmə məqsəduyğundur.

Barışıq, əgər davam etdirilərsə, başqa etiqada yönəldilən, dinc yolla məcbur etmə və ya rəqiblərin rejiminin və ya sisteminin dağılmasına gətirib çıxara bilən təsirlərin nəticəsi ola bilər.

**Səlahiyyət**: düzgün olduğu könüllü olaraq qəbul ediləcək və buna görə itaətkarlıq və ya əməkdaşlıq yolu ilə digərləri tərəfindən həyata keçiriləcək müəyyən fərdlərin və təsisatların mühakimələri, qərarları, tövsiyyələri və əmrlərini daşıyan keyfiyyətdir. Səlahiyyət siyasi hakimiyyətin əsas mənbəyidir, lakin onunla eyni deyil.

**Boykot**: Həm ictimai, iqtisadi, həm də siyasi əməkdaşlıqdan imtina.

**Mülki imtina:** Siyasi əməkdaşlıqdan imtina fəaliyyəti ilə sinonimdir.

**Vətəndaş aksiyası**: Siyasi məqsədlər üçün aparılan dinc aksiyaya sinonim.

**Vətəndaş itaətsizliyi**: Siyasi məqsədlər üçün aparılan dinc etirazın, müqavimətin və ya müdaxilənin iddialı fəaliyyətləri.

**Vətəndaş müqaviməti**: Siyasi məqsədlə aparılan dinc mübarizənin sinonimi.

**Vətəndaş tətili**: Siyasi məqsədlər üçün aparılan iqtisadi dayanma. Yalnız fəhlələr tətil etməli deyil, tələbələrin, mütəxəssislərin, mağaza sahiblərinin, ziyalıların (eləcə də hökumət işçilərinin) və yüksək təbəqənin üzvlərinin də bunda iştirak etməsi əhəmiyyətlidir.

**Vətəndaş itaətsizliyi**: Xüsusi qanunların, qərarların, nizamnamələrin, sərəncamların, hərbi və polis əmrlərinin və buna bənzər digər şeylərin düşünülmüş dinc yolla pozulması.
Bunlar adətən daxilən əxlaqsız, ədalətsiz və qəddar hesab edilən qanunlardır. Lakin bəzən, böyük dərəcədə nizamlayıcı və ya mənəvi cəhətdən neytral xarakterli qanunlara, hökumətin daha geniş siyasətinə müqavimət simvolu kimi, itaət olunmaya bilər.

**Yönəldilmə**: Rəqiblər tərəfindən dinc mübarizənin aparıldığı adamlara qarşı fikir dəyişikliyi; və beləliklə onlar dinc qrupun məqsədlərini qəbul etməyin düzgün olduğuna inanmağa başlayır. Bu dinc fəaliyyətdə dəyişikliyin dörd mexanizmindən biridir.

**Parçalanma**: Dinc aksiyada dördüncü dəyişmə mexanizmi; burada rəqiblər sadəcə

məcbur edilmir, həmçinin onların sistemi və yaxud hökuməti kütləvi əməkdaşlıqdan imtina və itaətsizlik nəticəsində dağılır və parçalanır. Güc mənbələri əməkdaşlıqdan imtina vasitəsilə o dərəcədə məhdudlaşdırılır və ya parçalanır ki, rəqiblərin sistemi və ya hökuməti sadəcə olaraq buraxılır.

**İqtisadi qapanma**: iqtisadi iflic yaratmaq üçün şəhərin, ərazinin və ya ölkənin iqtisadi fəaliyyətinin kifayət qədər böyük miqyasda dayandırılması. Bunun motivləri adətən siyasi olur.

Buna, idarəetmə, biznes, kommersiya insititutları və kiçik mağaza sahibləri öz müəsissələrini bağlayarkən və iqtisadi fəaliyyətlərini dayandırarkən, fəhlələrin ümumi tətili ilə nail olmaq olar.

**Azadlıq (siyasi)**: Fərdlərin fəaliyyət və seçim azadlığına və həmçinin fərdlər və qrupların cəmiyyətin və siyasi sistemin idarə olunmasında və qərarlarının qəbul olunmasında iştirak etməsinə imkan verən siyasi şərait.

**Böyük strategiya**: Münaqişədə, seçilmiş fəaliyyət kursu ilə məqsədə necə çatmaq haqqında ən geniş konsepsiya. Böyük strategiya, qrupun münaqişədə öz məqsədlərinə çatması üçün bütün uyğun və mümkün resurslarının (insan, siyasi, iqtisadi, mənəvi və s.) əlaqələndirməyə və istiqamətləndirməyə xidmət edir.

Bir sıra daha məhdud strategiyalar ümumi mübarizənin ikinci dərəcəli mərhələlərində xüsusi məqsədlərə nail olmaq üçün böyük strategiya daxilində tətbiq edilə bilər.

**Narazı qrup**: Əhalinin əsas qrupu: onların şikayətləri münaqişədə olan məsələlərdən ibarətdir və dinc müqavimətçilər tərəfindən dəstəklənirlər.

**İnsan resursları**: Burada bu termin "başçıya" (dövlətin kommandanlığı altında olan hakim qrup nəzərdə tutulur) tabe olan, onların istəyinin həyata keçirilməsində hakim qrupla əməkdaşlıq edən və ya yardım edən insanların və qrupların sayını göstərmək üçün istifadə edilir. Buraya daxildir: ümumi əhali arasında belə insanların və qrupların nisbəti və onların təşkilatlarının ölçüsü, formaları və müstəqilliyi.

Başçının hakimiyyətinə siyasi güc mənbələrindən birini təyin edən bu insan resurslarının imkanları ilə təsir edilir.

**Maddi resurslar**: Bu siyasi hakimiyyətin başqa bir mənbəyidir. Bu termin əmlaka, təbii resurslara, maliyyə resurslarına, iqtisadi sistemə, rabitə vasitələrinə və nəqliyyatın fəaliyyətinə aiddir. Başçınını nəzarət etdiyi və ya etmədiyi bu dərəcə onun hakimiyyətinin ölçüsünü və ya hüdudlarını müəyyən etməyə kömək edir.

**Dəyişmə məxanizmləri**: Dinc mübarizənin uğur qazandığı hallarda dəyişikliyə nail olma prosesləri. Dörd müxanizmə yönəldilmə, barışıq, dinc məcburiyyət və parçalama aiddir.

**Metodlar:** Dinc fəaliyyət texnikası daxilində xüsusi fəaliyyət vasitələri. Bu vaxtacan iki yüzə yaxın metod müəyyən edilib. Onlar üç əsas sinifə bölünür: dinc etiraz və inam, əməkdaşlıqdan imtina (sosial, iqtisadi və siyasi) və dinc müdaxilə.

**Əməkdaşlıqdan imtina**: bəyənilməyən şəxs, fəaliyyət, institut və ya rejim ilə düşünülmüş məhdudiyyət, davamsızlıq və yaxud sosial, iqtisadi və ya siyasi (və ya bunların birləşməsi) əməkdaşlığın dayandırılması daxil olan dinc aksiyanın böyük

metodlar sinfi.
Əməkdaşlıqdan imtina metodları sosial, iqtisadi (iqtisadi boykotlar və əmək tətilləri) və siyasi əməkdaşlıqdan imtina kimi alt-kateqoriyalarda təsnif olunur.

**Dinc vasitə (dini və ya əxlaqi)**: Zorakı hərəkətlərin dini və ya əxlaqi əsaslarda qadağan olunduğu müxtəlif növ inam və davaranışlar. Bəzi etiqad sistemlərində, yalnız fiziki zorakılıq deyil, həmçinin düşmən düşüncələr və sözlər də yasaq edilir. Bundan başqa müəyyən etiqad sistemləri rəqiblərə qarşı müsbət münasibətdən və davranışdan və yaxud rəqiblərin prinsiplərindən imtina etməyi əmr edir.
Belə möminlər çox vaxt praqmatik səbəblərdən dinc mübarizəni təcrübə edən insanlarla birgə dinc mübarizələrdə iştirak edə və ya bunu etməməyi tərcih edə bilərlər.

**Dinc aksiya**: Fiziki zorakılıq olmadan etiraz, müqavimət və müdaxilə etmək üçün ümumi texnika.

Belə aksiya (a) başa çatmamış hərəkətlər ilə aparıla bilər – yəni, iştirakçılar adətən icra etdikləri, ənənə ilə yerinə yetirilməsi gözlənilən və ya qanun və qayda ilə yerinə yetirilməsi tələb olunan hərəkətləri yerinə yetirməkdən imtina edirlər; və ya (b) təlimat hərəkətləri – iştirakçılar adətən yerinə yetirmədikləri, ənənə ilə yerinə yetirilməsi gözlənilməyən, qanun və qayda ilə yerinə yetirilməsi qadağan olunan hərəkətləri yerinə yetirir; və ya (c) hər ikisinin birləşməsi.

Bu texnikaya, üç əsas sinif üzrə qruplaşdırılmış çoxsaylı xüsusi metodlar daxildir: dinc etiraz və inam, əməkdaşlıqdan imtina və dinc müdaxilə.

**Dinc yolla məcbur etmə**: Dinc aksiyada dəyişmə mexanizmi: burada rəqiblərin arzusunun əksinə olaraq tələblər yerinə yetirilir, çünki geniş yayılmış əməkdaşlıqdan imtina və itaətsizlik vasitəsilə situasiyaya effektiv nəzarət onlardan alınmışdır. Lakin, rəqiblər hələ də öz rəsmi vəzifələrində qalır və sistem hələ ki, dağılmayıb.

**Dinc qiyam**: Kütləvi əməkdaşlıqdan imtina və itaətsizlik vasitəsilə zalım hesab edilən rejimə qarşı siyasi xalq üsyanı.

**Dinc müdaxilə**: Münaqişə vəziyyətində dinc vasitələr yolu ilə birbaşa olaraq rəqiblərin fəaliyyəti və onun sisteminin işinə müdaxilə edən dinc fəaliyyətin geniş metodlarından biri. Bu metodlar simvolik etirazlar və əməkdaşlıqdan imtinanın hər ikisindən fərqləndirilir. Dağıdıcı müdaxilə çox vaxt fiziki olur (oturaq nümayişlərdə olduğu kimi), lakin o, psixoloji, sosial, iqtisadi və siyasi də ola bilər.

**Dinc etiraz və inandırma**: Dinc aksiya metodlarının geniş növlərindən biri: müxalifətin fikirlərini ifadə edən və ya inam yaratmağa səy göstərən simvolik hərəkətlər (nümayişlər, piketlər, və yürüşlər kimi). Bu fəaliyyətlər fikrin şifahi ifadəsindən kənara çıxır, lakin əməkdaşlıqdan imtinaya (tətil kimi) və dinc müdaxiləyə (oturaq tətillər kimi) gəlincə tərəddüd edir.

**Dinc mübarizə**: Xüsusilə repressiya ilə cavab verəcəyi gözlənilən müəyyən edilmiş və hazırcavab rəqiblərə qarşı, dinc aksiyanın güclü formaları ilə müəyyən edilmiş münaqişənin aparılması.

**Dinc silahlar**: Dinc aksiyanın xüsusi metodları.

**Müdafiə dayaqları**: Mövcud rejimin güc imkanlarını qorumaq və genişləndirmək üçün

onu lazımi güc mənbələri ilə təchiz edən cəmiyyətin bölmələri və təsisatları.

Misal olaraq - sanksiyalar tətbiq edən polis, həbsxanalar və hərbi qüvvələr, səlahiyyəti (legitimliyi) təmin edən mənəvi və dini liderlər, iqtisadi resursları və eynilə müəyyən edilmiş digər siyasi güc mənbələri ilə təchiz edən əmək qruplarını, biznes və sərmayə qruplarını göstərmək olar.

**Siyasi itaətsizlik**: Diktaturanı dağıtmaq və onu demokratik sistemlə əvəz etmək məqsədilə dinc mübarizənin strateji tətbiqi.

Əməkdaşlıqdan imtina və itaətsizlik vasitəsilə aparılan bu müqavimət, diktaturanın güc mənbələrini məhdudlaşdırmaq və aradan qaldırmaq məqsədilə əzilən əhalinin gücünü səfərbər edir. Həmin mənbələr "müdafiə dayaqları" adlanan qruplar və təsisatlar tərəfindən təmin olunurlar.

Siyasi itaətatəsizlik uğurla tətbiq olunarsa, milləti mövcud və hər hansı gələcək diktatura tərəfindən idarə olunmasının qarşısını ala bilər və beləliklə mümkün yeni təhlükələrə qarşı demokratik sistemi qoruyub saxlaya bilər.

**Siyasi ciu-citsu**: hakimiyyətin münasibətlərini dəyişmək üçün dinc mübarizə zamanı işlədilə bilən xüsusi proses. Siyasi ciu-citsuda rəqiblərin dinc müqavimətçilərə qarşı zorakı repressiyasına mənfi reaksiyalar, rəqiblərin hakimiyyət mövqelərini zəiflətmək, dinc müqavimətçilərin mövqelərini isə gücləndirməklə, siyasi cəhətdən istifadə etmək üçün rəqiblərə qarşı yönəldilir. Bu yalnız o zaman əmələ gələ bilər ki, zorakı repressiya zorakılıq və təslimlə deyil, davamlı dinc itaətsizlik ilə üzləşir. O zaman rəqiblərin repressiyası mümkün olan ən pis fonda görünür.

Nəticədə yaranan fikir dəyişiklikləri üçüncü tərəflər, ümumi narazı qruplar və hətta rəqiblərin sadə tərəfdarları arasında baş verməlidir. Həmin dəyişikliklər həm rəqiblərin dəstəyinin geri ala, həm də dinc müqavimətçilər üçün dəstəyi artıra bilər. Nəticə, rəqiblərin geniş yayılmış məhkəmə hökmü, onlar arasında daxili müxalifət və artan müqavimət ola bilər. Bəzi hallarda bu dəyişikliklər hakimiyyətin münasibətlərində dinc mübarizə qrupunun xeyrinə başlıca dəyişikliklər yarada bilər.

Siyasi ciu-citsu dinc mübarizənin bütün hallarında işləmir. Bu olmadıqda isə, hakimiyyət münasibətlərinin dəyişməsi əsasən əməkdaşlıqdan imtinanın miqyasından asılı olur.

**Siyasi hakimiyyət**: Cəmiyyət üçün rəsmi siyasəti müəyyən etmək və yerinə yetirmək məqsədilə istifadə üçün yararlı olan təsir və təzyiqlərin cəmi. Siyasi hakimiyyətə hakimiyyət institutları və ya hakimiyyətə müxalifətdə olan disident qrupları və təşkilatları malik ola bilər. Siyasi hakimiyyət münaqişədə birbaşa tətbiq oluna bilər və ya o gələcəkdə mümkün istifadə üçün ehtiyat qüvvə kimi saxlanıla bilər.

**Sanksiyalar**: İnsanlara ya gözlənilən və ya arzu olunan qaydada hərəkət etmədiklərinə, ya da gözlənilməz və ya qadağan olunmuş qaydada hərəkət etdiklərinə görə zorla boyununa qoyulan zorakı və ya dinc cəzalar və ya təzyiq tədbirləri.

Dinc sanksiyaların itaətsizliyə görə sadə təzyiq tədbirləri olması zorakı sanksiyalardan daha az ehtimal olunur və qarşıya qoyulmuş məqsədə nail olmaq üçün nəzərdə tutulması daha çox ehtimal olunur. Sanksiyalar siyasi güc mənbəyidir.

**Özünə güvənmə**: Öz işlərini idarə etmək, öz mühakiməsini yürütmək və özü, öz qrupu

və ya təşkilatı üçün, müstəqilliyi, özünütəyini və sərbəstliyi təmin etmək bacarığı.

**Bilik və Bacarıqlar**: Siyasi güc mənbəyidir. Başçının hakimiyyəti, cəmiyyətdəki insanlar və qruplar (insan resursları) tərəfindən və həmin mümkün bilik, bacarıq və qabiliyyətlərin başçının onlara olan ehtiyacları ilə əlaqəsi vasitəsilə təmin edilən bilik, bacarıq və qabiliyyətləri ilə dəstəklənir.

**Güc mənbələri**: Bunlar siyasi qüvvənin mənbəyidir. Bura daxildir: hakimiyyət, insan resursları, bilik və bacarıqlar, anlaşılmaz amillər, maddi resurslar və sanksiyalar. Bunlar cəmiyyətdən törəyib. Bu mənbələrin hər biri əhalinin və cəmiyyətdəki təsisatların qəbulu edilməsi, əməkdaşlığı və itaəti ilə sıx bağlıdır və onlardan asılıdır. Bu mənbələrin güclü təmin olunması ilə başçı güclənər. Bu təchizat zəiflədilərsə və ya parçalanarsa, başçının hakimiyyəti zəifləyə və ya dağıla bilər.

**Strateji dinc mübarizə**: Münaqişə vəziyyətinin təhlili, rəqabət aparan qrupların güclü və zəif cəhətləri, dinc aksiya texnikasının təbiəti, bacarıqları və tələbləri və xüsusilə də həmin növ mübarizənin strateji prinsipləri əsasında hazırlanmış strateji plana əsasən tətbiq edilən dinc mübarizə. Həmçinin bax: böyük strategiya, strategiya, taktika və metodlar.

**Strategiya**: Ümumi münaqişə üçün böyük strategiya daxilində əsas mərhələnin və ya kampaniyanın aparılması üçün plan. Strategiya, xüsusi kampaniya mübarizəsinin necə inkişaf edəcəyi və onun ayrı–ayrı komponentlərinin öz məqsədlərinə çatmaq üçün daha əlverişli zəmin yaratmaqdan ötrü birlikdə necə uyğunlaşdırılacağı barədə əsas ideyadır.

Strategiya böyük strategiyanın imkanları daxilində işləyir. Taktika və xüsusi fəaliyyət metodları, xüsusi kampaniya üçün strategiyanı həyata keçirmək məqsədilə daha kiçik miqyasda tətbiq edilir.

**Tətil**: İşin qabaqcadan düşünülmüş şəkildə məhdudlaşdırılması və ya dayandırılması; bu, adətən müvəqqəti olmaqla, iqtisadi məqsədə çatmaq üçün sahibkarlara və ya bəzən siyasi məqsədə çatmaq üçün hökumətə təzyiq göstərilməsidir.

**Taktika**: Xüsusi məhdud məqsədlərə çatmaq üçün münaqişənin məhdudlaşdırılmış mərhələsində, mümkün fəaliyyət vasitələrindən effektiv istifadə edilməsi haqqında anlayışa əsaslanan məhdud fəaliyyət planı.

Taktikalar, ümumi münaqişənin bir mərhələsində daha geniş strategiyanın həyata keçirilməsində istifadə etmək üçün nəzərdə tutulur.

**Zorakılıq**: Digər insanlara qarşı ölüm və ya xəsarət yetirən fiziki zorakılıq və ya bu cür zorakılıq etmək üçün hədələr, yaxud da bu cür zərər vurma və hədələmələrdən asılı olan hər hansı hərəkət.

Bəzi dini və ya əxlaqi dinc vasitələr zorakılığı daha geniş nəzərdə tutur. Bu dar ifadə, dinc mübarizəni tətbiq etmək üçün praqmatik əsaslarda hazırlanan şəxslər və qruplarla əməkdaşlıq etməkdən ötrü həmin inamın tərəfdarlarına yol açır.

# ƏLAVƏ İKİ

# DİNC AKSİYANIN 198 METODU

**Dinc etiraz və inandırma metodları**

**Rəsmi bəyanatlar**
1. İctimai nitqlər
2. Etiraz və ya dəstək məktubları
3. Təşkilatlar və təsisatlar tərəfindən qəbul olunmuş bəyannamələr
4. İmzalanmış ictimai bəyanatlar (tanınmış adamlar tərəfindən)
5. İttiham və məqsəd bəyannamələri
6. Qrup və ya kütlələrin müştərək ərizələri

**Daha geniş auditoriya ilə əlaqələr**

7. Şüarlar, karikaturalar və rəmzlər
8. Bayraqlar, afişalar, əyani vasitələr
9. Vərəqələr, broşürlar və kitablar
10. Qəzet və jurnallar
11. Lent yazıları, radio və televiziya
12. Hava və yer reklamları (təyyarənin üzərində yazma), (torpağda şumla yazma, bitkilərin əkilməsi ilə yazma, daşlarla yazma və s.)

**Qrup təmsilolunmaları**

13. Nümayəndə göndərmələr
14. Ələsalma (gülüşdoğurucu) mükafatlar
15. Qrup halında lobbiçilik
16. Piketlərin keçirilməsi
17. Yalançı seçkilər

**Rəmzi ictimai aksiyalar**

18. Bayraqların və rəmzi rənglərin nümayişi
19. Rəmzlərin əyində gəzdirilməsi
20. İbadət və itaət etmə
21. Rəmzi hədəflərin təqdim edilməsi
22. Etiraz soyunmaları
23. Şəxsi əmlakın dağıdılması
24. Rəmzi işıqlar (Lampalar, fonarlar, və sairə işıqlandıdıcı cihazlar)
25. Portretlərin nümayişi
26. Etiraz rəsmləri
27. Küçələrin yeni işarə və adlarla bəzənməsi
28. Rəmzi səslər
29. Rəmzi olaraq torpaqların "zəbt edilməsi"
30. Kobud jestlər

**Fərdlərə təzyiqlər**
31. Məmurların daban-dabana "izlənməsi"
32. Məmurların ələ salınması
33. Əsgərlərlə qardaşlaşma
34. Gecələr keşikdə durma

**Drama və musiqi**
35. Yumoristik parodiyalar və kobud zarafatlar

36. Pyes və musiqi tamaşaları
37. Mahnı oxuma

**Hərəkatlar**
38. Marşlar
39. Paradlar
40. Dini hərəkatlar
41. Zəvvarliq
42. Maşın korteji

**Ölənlərə ehtiram**
43. Siyasi matəm
44. Lağlağı dəfnlər
45. Nümayişkəranə dəfnlər
46. Dəfn yerlərinə ziyarət

**İctimai yığıncaqlar**
47. Etiraz və ya dəstək yığıncaqları
48. Etiraz mitinqləri
49. Gizli etiraz mitinqləri
50. Müzakirə xarakterli seminarlar

**Geri çəkilmələr və imtinalar**
51. Nümayişkəranə tərk etmələr
52. Susmalar
53. Şan-şöhrətdən imtina
54. Arxa çevirmə

**İCTİMAİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI**

**Adamların cəmiyyətdən qovulması (ostrakizm)**
55. İctimai boykotlar
56. Seçilmiş ictimai boykotlar
57. Ər-arvad borcunu yerinə yetirməkdən imtina (Lisistat üzrə)
58. Məscitdən, ibadətgahlardan (kilsədən) uzaqlaşdırılma
59. Dini ibadətin dayandırılması

**Ictimai hadisələrdən, ənənələrdən və təsisatlarla əməkdaşlıqdan imtina**
60. İctimai və idman fəaliyətlərinin dayandırılması
61. İctimai işlərin boykot edilməsi
62. Tələbə tətilləri
63. İctimai itaətsizlik
64. İctimai təsistatlarda üzvlükdən imtina və geri çəkilmə

**İctimai sistemdən geri çəkilmə**
65. Evdə qalmalar (çölə çixmaqdan imtina)
66. Şəxsi olaraq əməkdaşliqdan tam imtina
67. Fəhlələrin qaçışı (iş yerlərini kütləvi tərk etmələr)
68. Sığınacaqda gizlənmə
69. Kollektiv şəkildə yox olmalar
70. Etiraz miqrasiyaları (hicrət)

**İQTİSADİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI**
**(1) İQTİSADİ BOYKOTLAR**

**Istehlakçıların aksiyaları**

71. İstehlakçıların boykotu
72. Boykot edilmiş malların istehlak edimәsindәn imtina
73. Asketizm (sәrtlik) siyasәti
74. İcarә haqqını ödәmәkdәn imtina
75. İcarәyә götürmәkdәn imtina
76. Milli istehlakçıların boykotu
77. Beynәlxalq istehlakçıların boykotu

**Fәhlә vә istehsalçıların aksiyaları**

78. Fәhlәlәrin boykotu
79. İstehsalçıların boykotu

**Vasitәçilәrin aksiyaları**

80. Tәchizatçı vә vasitәçilәrin boykotu

**Sahibkarların vә idarәlәrin aksiyaları**

81. İş adamlarının boykotu
82. Əmlakın satılması vә ya icarәyә verilmәsindәn imtina
83. Lokautlar (sahibkar tәrәfindәn istehsalın dayandırılması)
84. Sәnaye dәstәyindәn imtina
85. İş adamlarının "ümumi tәtili"

**Maliyyә resursları sahiblәrinin aksiyaları**

86. Bank depozitlәrinin geri alınması
87. Qonorarları, haqları vә vergilәri ödәmәkdәn imtina
88. Gәlirlәrin vә borcların ödәnilmәsindәn imtina
89. Pulların vә kreditlәrin ayrılmasının sәrtlәşdirilmәsi
90. Gәlir vergilәrinin ödәnilmәsindәn imtina
91. Dövlәtin pulundan imtina

**Hökumәtin aksiyaları**

92. Daxili embarqo
93. Ticarәt edәnlәrin "qara siyahı"sının hazırlanması
94. Beynәlxalq satıcıların embarqosu
95. Beynәlxalq alıcıların embarqosu
96. Beynәlxalq ticarәt embarqosu

**İQTİSADİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI**
**(2) TƏTİL**

**Rәmzi tәtillәr**

97. Etiraz tәtili
98. Gözlәnilmәz tәtil (xәbәrdarlıqsız tәtil)

**Kәnd tәssәrüfatı tәtillәri**

99. Kәndlilәrin tәtili
100. Kәnd tәsәrrüfatında çalışanların (Ferma işçilәrinin) tәtili

**Xüsusi qrupların tәtillәri**

101. Mәcburi işdәn imtina
102. Mәhbusların tәtili
103. Peşә sahiblәrinin tәtili
104. Sәnәtkarların tәtili

**Adi sәnaye tәtillәri**

105. Tәşkilati tәtillәr

106. Sənaye tətilləri
107. Həmrəylik tətili

**Məhdud tətillər**

108. Müfəssəl tətillər
109. Növbəli tətillər
110. İşin sürətinin azaldılması
111. Ciddi təlimat üzrə iş
112. “Xəstəlik” üzündən işə çixmama
113. İstefa ilə tətil
114. Məhdudlaşdırılmış tətil
115. Seçki tətili

**Çoxsahəli tətillər**

116. Yayılan və ümumiləşən tətillər
117. Ümumxalq tətili

**Tətillər və iqtisadi müəssisələrin, idarələrin fəaliyyətinin dayandırılmasının kombinasiyası**

118. İşin və ticarətin etiraz əlaməti olaraq dayandırılması
119. Bütün İqtisadi fəaliyyətin dayandırılması

**SİYASİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI**

**Hakimiyyətin rədd edilməsi**

120. Hakimiyyətə sadiq qalmaqdan geri çəkilmə və imtina
121. İctimai dəstəkdən imtina
122. Müqaviməti təbliğ edən ədəbiyyat və nitqlər

**Vətəndaşların hakimiyyətlə əməkdaşlıqdan imtina etməsi**

123. Qanunverici orqanların boykot edilməsi
124. Seçkilərin boykot edilməsi
125. Dövlət idərələrində işə düzəlməyi və dövlət vəzifələrini tutmağı boykot etmə
126. Dövlət idarələrini, agentliklərini və başqa orqanlarını boykot etmə
127. Dövlətin təhsil təsisatlarından çıxma
128. Dövlətin dəstəklədiyi təşkilatların boykot edilməsi
129. Mühafizə orqanlarına dəstək verməkdən imtina
130. Küçə xətlərinin və özünə məxsus şəxsi əmlak işarələrinin pozulması
131. Təyin olunmuş məmurları qəbul etməkdən imtina
132. Mövcud təsisatların buraxılmasından imtina

**Vətəndaş itaətsizliyinin alternativləri**

133. Könülsüz və asta tabeçilik
134. Bilavasitə nəzarətin mövcud olmadığı halda tabesizlik
135. Xalqın tabesizliyi
136. Gizli tabesizlik
137. Yığıncaq və ya mitinqlərdə dağılışmaqdan imtina etmə
138. Oturaq tətil
139. Hərbi qulluqdan və deportasiyalardan imtina
140. Gizlənmə, qaçış və saxta şəxsiyyət vəsiqələrinin hazırlanması
141. “Qeyri-legitim” qanunlara vətəndaşların itaətsizliyi

**Dövlət məmurlarının aksiyaları**

142. Hökumət müşavirlərinin, nümayəndələrinin kəməyindən imtina
143. Əmr və məlumatların ötürülməsinin əngəllənməsi
144. İdarələrin işini ləngitmə və əngəl törətmə
145. İnzibati əməkdaşlıqdan ümumi imtina
146. Hüquqi əməkdaşlıqdan imtina

147. Düşünülmüş şəkildə effektsizliyin yaradılması və icra orqanları ilə əməkdaşlıqdan imtina
148. Qiyam

**DAXILI HÖKUMƏT AKSIYALARI**

149. Qanuni (güya) yayınma və gecikmə
150. Aşağı hökumət orqanları ilə əməkdaşlıqdan imtina etmə

**BEYNƏLXALQ HÖKUMƏT AKSİYALARI**

151. Diplomatik və digər nümayəndəliklərdə dəyişiklik
152. Diplomatik hadisələrin gecikməsi və təxirə salınması
153. Diplomatik tanınmaların dayandırılması
154. Diplomatik əlaqələrin pisləşməsi
155. Beynəlxalq təşkilatlardan çıxma
156. Beynəlxalq təşkilatlarda üzvlükdən imtina
157. Beynəlxalq təşkilatlardan çıxarılma

**BEYNƏLXALQ MÜDAXİLƏ METODLARI**

**Psixoloji müdaxilə**

158. Özünü təbii fəlakətlərin güdazına vermək (özünü yandırma, özünü boğma)
159. Aclıq

a) mənəvi təzyiq aclığı

b) aclıq aksiyası

c) Satyaqraha (Mahatma Gandi tərəfindən işlədilən sözdür, onu "dinc üsullarla həqiqət axtarışı" kimi başa düşmək olar) ruhunda oruc tutma

160. Əks məhkəmə (müttəhimin məhkəmədən ittihamçı tərəfi günahlandırmaq üçün istıfadə etməsi)
161. Dinc yolla opponentin psixoloji cəhətdən haldan salınması

**Fiziki müdaxilə**

162. Oturaq tətil
163. Ayaq üstə tətil
164. İctimai nəqliyyatdan düşməmə
165. İrsi ayrı-seçkilik zamanı seqreqasiya edilmiş çimərliklərdən istifadə edilmə
166. Yerində addımlama
167. Seqreqasiya olunmuş məscid və kilsələrdə ibadət etmə (dini tətil)
168. Dinc marşlar
169. Dinc hava uçuşları (opponetlərin nəzarətində olan ərazilərə dinc hava uçuşları)
170. Qadağan olunmuş zonalara dinc müdaxilə
171. Opponentin işlətdiyi zora qarşı öz bədəni ilə dinc üsullarla maneələr törətmə (psixoloji təsir)
172. Işlədilən zora qarşı öz bədəni ilə dinc üsulla sipər çəkmə (fiziki təsir)
173. Dinc işğal

**İctimai müdaxilə**

174. Yeni sosial-ictimai modellərin qurulması
175. Yerlərin, mənzillərin, binaların həddən artiq doldurulması
176. Yolların bağlanması
177. Dayanmadan nitq söyləmə
178. Küçələrdə özfəaliyyət partizan səhnələrinin tamaşaya qoyulması
179. Alternativ ictimai təsisatlar
180. Alternativ rabitə sistemi

**İqtisadi müdaxilə**

181. Əks tətil
182. Oturaq tətil (iş qurtarandan sonra da iş yerini tərk etməmək)
183. Dinc torpaq işğalı

184. Blokadanı yerinə yetirməyə itaətsizlik göstərmək
185. Siyasi motivli saxta pul əskinaslarının hazırlanması
186. Strateji vacib malların xəbərdarliq formasında kütləvi şəkildə alınması
187. Əmlakların işğalı
188. Damping (ucuz ixrac etmə)
189. Seçilmiş himayə (xüsusi olaraq seçilmiş firma və idarələr üzərində nümayişkarənə himayədarliq)
190. Alternativ bazarlar
191. Alternativ nəqliyyat sistemləri
192. Alternativ iqtisadi təsisatlar

**Siyasi müdaxilə**

193. İnzibati sistemlərin daha çox yüklənməsi
194. Gizli agentlərin ifşa olunması
195. Həbs olunmağa çalışmaq
196. “Neytral” qanunlara vətəndaşların tabesizliyi
197. Əməkdaşlıqdan imtina edərək işə davam etmə
198. İkili suverenlik və paralel hakimiyyətin yaradılması

Şübhəsiz ki, geniş sayda əlavə metodlar artıq istifadə edilib, lakin təsnif edilməyib və metodların üç sinfi üzrə xarakterizə olunan çoxsaylı əlavə metodlar hələ gələcəkdə kəşv olunacaqlar. Bunlar: dinc etiraz və inandırma, əməkdaşlıqdan imtina və dinc müdaxilədir.

Aydın başa düşülməlidir ki, yalnız əvvəlcədən qəbul edilmiş strategiyanı həyata keçirmək üçün ən böyük effektivlik istifadə ediləcək fərdi metodlar seçiləndə mümkün olur. Həmin təzyiqləri ən yaxşı tətbiq edəcək dəqiq fəaliyyət formalarının seçilməsindən əvvəl,  hansı növ təzyiqlərdən istifadə ediləcəyini bilmək vacibdir.

## ƏLAVƏ ÜÇ
## ƏLAVƏ OXU ÜÇÜN

Piter Akerman və Jak Dual, *Daha Güclü Qüvvə: Yüz İllik Dinc Mübarizə.* Nyu York: M. Martin Nəşr., 2000.

Piter Akerman və Xristofer Kruqler, *Strateji Dinc Münaqişə: İyirminci Əsrdə Xalq Hakimiyyətinin Dinamikası*. Vestport, Konektikut və London: Praeger, 1994.

Ronald MakKarti və Cin Şarp Brad Bennet ilə, *Dinc Fəaliyyət: Tədqiqat Aparıcısı*. Nyu York: Harland Nəşr., 1994.

Cin Şarp və Bryus Jenkins, *Əks-Gediş*. Boston, Masaçusets: Albert Eynşteyn İnstitutu, 2003.

Cin Şarp, *Mülki Əsaslı Müdafiə: Keçmiş Hərbi Silah Sistemi*. Prinston, Nyu Jersi və London: Prinston Universitetinin Nəşr. , 1990.

Cin Şarp, *Diktaturadan Demokratiyaya Doğru*. Banqkok: Birmada Demokratiyanın Bərpası üzrə Komitə, 1993. Həmçinin, Boston Masaçusets: Albert Eynşteyn İnstitutu 2002.

Cin Şarp, *Dinc Aksiya Siyasəti*. Boston: Porter Sarjent, 1973. İndi üç broşur həcmindədir.

Cin Şarp. "Dinc Mübarizədə Hakimiyyətin Rolu". Kembric, Masaçusets: Albert Eynşteyn İnstitutu, 1990.

Cin Şarp. İctimai Güc və Siyasi Azadlıq. Boston: Porter Sarjent, 1980.

Cin Şarp. *Dinc Mübarizənin Aparılması: İyirminci Əsrin Təcrübəsi və İyirmi Birinci Əsrin Potensialı*. Qarşıdan gələn 2003.

## MİNNƏTDARLIQ

Bu kitabça Beynəlxalq Sülh Tədqiqat Assosiasiyası Fondunun maliyə dəsətəyi ilə nəşr olunmuşdur.

Albert Eynşteyn İnstitutunun əməkdaşı Hardi Merimanın, öz məsləhətləri, əlavə ediləcək mümkün mətnləri qiymətləndirməsi, redaktə bacarığı və istehsal məsələlərini idarə etməsi ilə bu nəşrin hazırlanmasında böyük köməyi olmuşdur. Jəmilə Rəqib də faydalı məsləhtlər və fikirlər təklif etmişdir.

Birinci Fəsil, "Müharibə və Digər Zorakılıqlara Real Alternativlərin Hazırlanması", 10 aprel, 1999-cu ildə Nyu Yorkun Loudon şəhərindəki Siena Kolecində keçirilən Sülh Elmləri Cəmiyyəti və Sülh Tədqiqatı, Təhsil və İnkişaf üzrə Konsorsiumunun birgə konfransında təqdim edilmiş məruzəyə əsaslanır. Bu münasibətlə Cin Şarp Sülh Tədqiqatları Ərzində Nailiyyətlər Mükafatı ilə təltif olunmuşdur.

Mən Kris Miller, Çarlz Blumşteyn, Loyd (Ceff) Dumas, Valter Konser, Karolin Stefenson və Ken Breslerə redaktə işləri ilə bağlı verdikləri təkliflərə görə öz dərin minnətdarlığımı bildirirəm.

İkinci Fəsil, "Dinc Mübarizədə Strateji Planlaşdırmanın Əhəmiyyəti" əvvəllər bu formada nəşr edilməmişdi.

Üçüncü Fəsil, "Repressiv Rejimlərə qarşı Dinc Mübarizələr üçün Strateji Planlaşdırmada Atılan Addımlar" 9 yanvar 2002-ci ildə Vircinya ştatının Varenton şəhərindəki Erli Evində keçirilən ABŞ-ın Sülh İnstitutu və Dinc Münaqişə üzrə Beynəlxalq Mərkəzin Azadlıq Evi ilə birgə konfransında təqdim edilmiş elmi məruzənin yeni işlənmiş variantıdır.

Əlavə Bir, "Dinc Mübarizənin Mühüm Terminlər Sözlüyü" Cin Şarpın dinc mübarizə sahəsində olan terminologiya və təriflər və hələ də (2003) irəliləməkdə olan əlavə mövzular barədə hazırladığı böyük əlyazmalarından seçilmişdir.

Əlavə İki, "Dinc Mübarizənin 198 Metodu", Cin Şarpın, *Dinc Fəaliyyət Siyasəti,* İkinci Hissə, Dinc Fəaliyyətin Metodları. Boston: Porter Sarcent, 1973 və sonrakı nəşrlər əsasında hazırlanıb. Həmin kitabda hər bir metodun dəqiq tərifləri, müzakirələri və nümunələri öz əksini tapmışdır. Bu Fəsilə oxşar mətn 1990-cı illərdə Albert Eynşteyn İnstitutu tərəfindən vərəqələr halında nəşr edilmiş və Tay və Rus dilləri daxil olmaqla bir neçə dildə yenidən nəşr edilmişdir.